## Türkiyə-Ermənistan sərhədində mina partlayıb

Bir nəfər yaralanıb



**Türkiyə-Ermənistan sərhədində mina partlayıb.**

"Report" "Kars Güncel"ə istinadən xəbər verir ki, hadisə nəticəsində 1 nəfər yaralanıb.

Partlayış Qars şəhərinin Arpaçay rayonunda baş verib. Qeyd edək ki, həmin ərazidə minalardan təmizlənmə işləri həyata keçirilir.

*Xatırladaq ki, bundan əvvəl Türkiyənin Ermənistanla danışıqlar üzrə nümayəndəsi Sərdar Kılıçın həmin əraziyə səfərinə dair məlumat yayılmışdı*





## Bayden koronavirusdan sağalıb

**Co Bayden demək olar ki, tamamilə sağalıb.**

APA-nın TASS-a istinadən verdiyi xəbərə görə, bu barədə Ağ Evdən bildirilib.

Meksikada məşhur narkobaron saxlanılıb

*Qeyd olunub ki, ABŞ prezidentində COVID-19-un simptomları yox olub.*


❒ № 129 (5651), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 26 iyul 2022-ci il (çərşənbə axşamı)




# Terrorçularla atışma

Türkiyə beş şəhid verdi

**"Pençe-Yıldırım" əməliyyatı zonasında terrorçularla atışmada zamanı Türkiyə ordusunun bir hərbçisi və dörd mühafizəçi həlak olub.**

Bunu Türkiyənin daxili işlər naziri Süleyman Soylu bildirib.

Soylu terrorçularla atışmada Bülent Vermez, Kamal İmece, Avdi Demir və Veysi Sebikin əsgər Remzi Nişanla birlikdə şəhid olduğunu açıqlayıb.



## İcra başçıları bütün kəndlərdə olmalıdır

Prezident İlham Əliyev rayon rəhbərlərinə çağırış edib

**"Şəhid ailələrinə xüsusi diqqət göstərilməlidir. Dövlət tərəfindən bu diqqət daim göstərilir". Bunu Prezident İlham Əliyev Masallı, Lerik və Göygöl rayonlarının yeni təyin olunmuş icra başçılarını qəbul edərkən deyib. Dövlət başçısı qeyd edib ki, İkinci Qarabağ müharibəsindən əvvəl və İkinci Qarabağ müharibəsindən sonra şəhid ailələri daim diqqət mərkəzindədir:**

"Bilirsiniz ki, mənim şəhid ailələri, müharibə əlilləri ilə çoxsaylı görüşlərim olub. Onların məişət problemləri dövlət xətti ilə həll olunur, 12 min 500-dən çox şəhid ailəsinə dövlət tərəfindən mənzillər, fərdi evlər verilmişdir, minlərlə minik maşınları verilmişdir.

(səh.2)

# Zamanı yetişib

Qarabağda anti-terror əməliyyatları başlaya bilər



## Ermənistan tərəfinin ziddiyyətli açıqlamaları Azərbaycana son addımı atmaq üçün hüquqi əsaslar yaradıb

**Ermənistanın keçmiş ombudsmanı Arman Tatoyan Azərbaycanın rus sülhməramlılarının müvəqqəti nəzarəti altında olan hissəsində Ermənistan hərbi birliklərinin olması faktını tamamilə təkzib edib.**

Erməni və rus mediası iki gündür onun əsassız iddialarını təbliğ etməklə məşğuldur. Məsələ ondadır ki, Ermənistanın Baş Qərargah rəisinin müavini Qarabağa bundan sonra çağırışçıların deyil, muzdlu əsgərlərin göndəriləcəyini və oradakı həqiqi hərbi xidmətçilərin müqavilələ hərbçilərlə əvəzlənəcəyini bildirir. Azərbaycanın kəskin etirazından sonra Ermənistan TŞ katibi Armen Qriqoryan Qarabağdakı Ermənistan hərbçilərinin çıxarılacağını rəsmən elan edir. Ancaq tatoyanlar media təbliğatçıları ilə birləşib bunu təkzib etməyə çalışırlar.

(səh.4)

## Erməni diasporu prosesi sabotaj edir

AKP sözçüsü Ermənistanla münasibətlərin normallaşmasından danışıb



**Ermənistanla münasibətlərin normallaşma prosesinə dair danışıqlar qarşı tərəfin sözünü tutduğu müddət ərzində önəmlidir.**

APA-nın İstanbul müxbirinin xəbərinə görə, bunu Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AKP) sözçüsü Ömər Çelik mətbuat konfransı zamanı deyib.

O qeyd edib ki, bu proses Azərbaycan və Türkiyə liderlərinin ortaq iradəsi sayəsində baş verib.

O əlavə edib ki, İkinci Qarabağ müharibəsindən sonra bu proses üçün daha uyğun şərait yaranıb.

Çelik, həmçinin, bəzi dövlətlərin və erməni diasporunun Ermənistanı öz təsiri altında tutmaq üçün bu prosesi sabotaj etmək cəhdlərinin olduğunu da vurğulayıb.

# Qoşulmama Hərəkatının Gənclər Təşkilatı yaradılacaq

"Gənc nəsil həm də qlobal tərəqqinin lokomotividir"



**Dünən Bakıda Qoşulmama Hərəkatının Gənclər Sammiti keçirilib. Sammitdə Qoşulmama Hərəkatına üzv olan 60-dan çox ölkənin gənc nümayəndəsi iştirak edib.**

Sammitin müxtəlif seqmentləri çərçivəsində iştirakçılar tədbirin yekun sənədlərini müzakirə edəcəklər. QH Modeli Simulyasiya məşğələsi, eləcə də təşkilatların effektiv idarə edilməsi barədə təlim sessiyasında iştirak edəcək, müxtəlif rəsmilərin iştirakı ilə panel müzakirələri, təqdimatlar keçiriləcək.

(səh.3)



## Polşanın "PT-91" tankları Ukraynaya çatdırılıb

**Polşanın "PT-91" tankları artıq Ukraynaya gətirilib.**

APA xəbər verir ki, bu barədə Ukrayna prezidenti Vladimir Zelenskinin ofisinin rəhbəri Andrey Yermak "Telegram" kanalında yazıb.

"PT-91 Twardy" artıq Ukraynadadır. Dostlarımıza təşəkkür edirik", - deyə o qeyd edib.

## Vəfat edən olmayıb

Azərbaycanda gündəlik yoluxma düşdü, 102 nəfər oldu





**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 102 yeni yoluxma faktı qeydə alınıb, 68 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 796 576 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 784 908 nəfər müalicə olunaraq sağalıb, 9 735 nəfər vəfat edib, aktiv xəstə sayı 1 933 nəfərdir.

Ölkədə son sutka ərzində 1 860, hazırkı dövrədək isə 7 025 998 test aparılıb.

## Koronavirus hələ də bizimlədir və hələ də təhlükəlidir

Səhiyyə Nazirliyi: "Biz sadə tədbirlərə əməl etməklə özümüzü və yaxınlarımızı təkcə koronavirusdan deyil, digər yoluxucu xəstəliklərdən də qoruya bilərik"



**Təəssüf ki, Azərbaycanda da COVID-19 infeksiyasına yoluxanların sayında artım müşahidə olunur.**

Qonşu ölkələrdə də həftəlik xəstələnmə hallarında artım var.

Bunu Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru Qəhrəman Haqverdiyev deyib.

(səh.3)



## Qərb üçün artıq müharibə mövzusu qapanıb

Azərbaycan Avropa İttifaqının bölgədə vasitəçiliyini dəstəkləməklə birdən çox hədəfə nail oldu

(səh.3)



## Vətəndaşların dənizə çıxışı bağlanıb

Bakının Şıxov çimərliyindən Qaradağ rayonuna qədər bütün dəniz hasarlanıb

(səh.4)



# İcra başçıları bütün kəndlərdə olmalıdır

## Prezident İlham Əliyev rayon rəhbərlərinə çağırış edib

**"Şəhid ailələrinə xüsusi diqqət göstərilməlidir. Dövlət tərəfindən bu diqqət daim göstərilir". Bunu Prezident İlham Əliyev Masallı, Lerik və Göygöl rayonlarının yeni təyin olunmuş icra başçılarını qəbul edərkən deyib. Dövlət başçısı qeyd edib ki, İkinci Qarabağ müharibəsindən əvvəl və İkinci Qarabağ müharibəsindən sonra şəhid ailələri daim diqqət mərkəzindədir:**

"Bilirsiniz ki, mənim şəhid ailələri, müharibə əlilləri ilə çoxsaylı görüşlərim olub. Onların məişət problemləri dövlət xətti ilə həll olunur, 12 min 500-dən çox şəhid ailəsinə dövlət tərəfindən mənzillər, fərdi evlər verilmişdir, minlərlə minik maşınları verilmişdir. Bu proses davam etdirilir. Bakı, Sumqayıt və Abşeron rayonlarında şəhid ailələrinin evlə təminatı məsələləri artıq yekunlaşmaq üzrədir. Digər rayonlarda da dövlət xətti ilə bu iş görüləcək. Yəni dövlət öz üzərinə düşən vəzifəni icra edir. O cümlədən şəhid ailələrini, müharibə əlillərini işlə təmin etmək üçün çoxsaylı tədbirlər həyata keçirilir. Əsas odur ki, yerlərdə də bu kateqoriyadan olan insanlara diqqət göstərilsin. Rayon icra orqanlarının nümayəndələri onlara biganə qalmasınlar, əksinə, daim onların yaşayışı ilə maraqlansınlar, onların məşğulluğu ilə maraqlansınlar".

**"Təəssüf olsun ki, bəzi icra başçıları əyri yolla gediblər və bu gün bunun acısını çəkirlər"**

**Ölkə başçıları bəyan edib ki, bir neçə keçmiş icra başçısı cinayət məsuliyyətinə cəlb edilib, bəzilərinin hökmü verilib, bəzilərinin işləri məhkəmədədir:** "Bu onu göstərir ki, heç kim qanundan üstün ola bilməz. Mən bütün icra başçılarını vəzifəyə təyin edərkən göstərişlərimdən biri o idi ki, korrupsiyaya, rüşvətxorluğa qarşı biz amansız mübarizə aparmalıyıq və icra başçıları burada nümunə olmalıdırlar. Əfsuslar olsun ki, bəziləri əyri yolla gediblər və bu gün bunun acısını çəkirlər. Bu, hər bir dövlət məmuru üçün dərs olmalıdır".

**"Nəyə gücünüz çatırsa, rayon daxilində həll etməlisiniz"**

**Prezident icra başçılarına çağırış edib:** "Siz daim insanlarla təmasda olmalısınız. Bütün kəndlərdə olmalısınız, kənd camaatının qayğıları ilə yaşamalısınız, onları narahat edən problemləri onların dilindən eşitməlisiniz və imkan daxilində bu problemləri həll etməlisiniz. Nəyə gücünüz çatırsa, rayon daxilində həll etməlisiniz. Elə məsələlər var, onlar dövlət orqanları tərəfindən həll olunmalıdır. Bu barədə də aidiyyəti dövlət orqanlarına müraciət etməlisiniz - Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, aidiyyəti dövlət qurumlarına ki, mövcud problemlər öz həllini tapsın. Əgər hər bir kəndin problemi həll olunarsa, deməli olar ki, ölkədə insanları narahat edən ciddi problem qalmayacaq".

**"Azərbaycan cəmiyyəti ölkədə gedən prosesləri dəstəkləyir"**

**Dövlət başçısı bildirib ki, fəaliyyətinizdə sosial ədalət prinsipinə əməl etməlisiniz:** "Sosial ədalət, bütövlükdə ədalət prinsipləri cəmiyyətin əsas prinsiplərindən biridir və sağlam cəmiyyətdə ədalət hökm sürür. Biz isə sağlam cəmiyyət qururuq və demək olar ki, bu işdə müvəffəqiyyətlər qazanmışıq. Bu gün Azərbaycan cəmiyyəti həmrəylik nümayiş etdirir, Azərbaycan cəmiyyəti ölkədə gedən prosesləri dəstəkləyir, bizim xarici, daxili siyasətimizi dəstəkləyir. Çünki bizim siyasətimiz Azərbaycan xalqının rifah halının yaxşılaşmasına istiqamətləndirilib. Bizim siyasətimiz ölkəmizin beynəlxalq nüfuzunu gücləndirir. Bizim siyasətimiz nəticəsində Azərbaycan hərbi və ondan sonra siyasi yollarla Ermənistanın işğalçılıq siyasətinə son qoydu, əzəli torpaqlarımızı azad etdi, tarixi ədaləti bərpa etdi, milli qüruru bərpa etdi".

**"Bəzi hallarda sahibkarlar qarşısında müəyyən qanunsuz, əsassız tələblər irəli sürülür"**

**Ölkə başçısı vurğulayıb ki, rayonların inkişafı ilə bağlı siz özünüz təşəbbüs göstərməlisiniz:** "Bəzi hallarda yerli icra orqanları bir qədər tənbəllik edirlər, ya gözləyirlər ki, dövlət tərəfindən hansısa layihələr icra ediləcək, ya da ki, sahibkar gəlib onların qapısını döyəcək. Belə olan halda, bəzi hallarda sahibkarlar qarşısında müəyyən qanunsuz, əsassız tələblər irəli sürülür. Siz özünüz sahibkarları rayonlarınıza cəlb etməlisiniz, həm yerli sahibkarları, həm də xarici sahibkarları. Xüsusilə nəzərə alsaq ki, Göygöl, Masallı və Lerik rayonlarının turizm potensialı çox zəngindir və bu rayonların füsunkar təbiəti bizim böyük sərvətimizdir - meşələr, dağlar, bulaqlar, çaylar, şəlalələr. Yəni, bu rayonları, sözün əsl mənasında, turizm mərkəzinə çevirmək hesab edirəm ki, əsas vəzifələrdən biridir".

**"Hakimiyyət təmizlənir və insanlar da bunu görürlər"**

**Prezident deyib ki, idarəetmədə çox ciddi islahatlar aparılır, çox böyük təmizləmə işləri aparılır:** "Bu işlərə rəvac verən və bəzi dövlət məmurlarını, yerli icra orqanlarını bu qanunsuz işlərə təhrik edən insanlar hakimiyyətdən uzaqlaşdırıldı. Hakimiyyət təmizlənir və insanlar da bunu görürlər. Ona görə siz dövlət məmurları kimi bu hallara çox ciddi fikir verməlisiniz. Bunu mən sizə deyirəm və bütün dövlət orqanlarının nümayəndələrinə deyirəm, eyni zamanda, qanunsuz işlərlə məşğul olmaq istəyən insanlara deyirəm: Əl çəkin bundan! Cəzalandırılacaqsınız və cəzalandırılırlar. Biz kiminsə tamahına, kiminsə şəxsi maraqlarına görə ölkəmizin uğurlu inkişafına kölgə sala bilmərik. Ona görə torpaqların qanunsuz zəbt edilməsi prosesi araşdırılmalıdır. Həm rəhbərlik edəcəyiniz rayonlarda, həm bütün ölkə üzrə, Abşeron yarımadasında, sahilboyu ərazilərdə, bütün rayonlarda araşdırılmalıdır və qanunsuz əməllərə son qoyulmalıdır".

> "Hansısa dövlət məmuru öz vəzifə borcunu şərəflə yerinə yetirmirsə, əlbəttə ki, cəzalandırılacaq"

**"Daim şəhid ailələri və müharibə əlillərinin problemləri ilə maraqlanıram"**

**Dövlət başçısı qeyd edib ki, biz Qələbəni onlara - şəhidlərimizə, müharibə əlillərinə, müharibə iştirakçılarına borcluyuq:** "Əlbəttə, dövlət qətiyyət göstərdi, biz öz iradəmizi ortaya qoyduq, heç nəyə baxmadan, heç kimdən çəkinmədən, "öldü var, döndü yoxdur" deyərək torpaqlarımızı azad etdik. Bu, dövlət siyasətidir və dövlətin gücüdür, vətəndaşlarımızın həmrəyliyidir. Amma onu da heç kəs unutmamalıdır ki, azad edilmiş torpaqlarımıza bayrağımızı sancan bizim qəhrəman əsgər və zabitlərimiz olub. Onlar öz canlarını fəda edib, onlar sağlamlığını itirib, onlar heç nəyə baxmadan, qorxmadan ölümə gedərək Vətənimizi işğalçılardan xilas ediblər. Ona görə hər bir dövlət məmurunun, nəinki dövlət məmurunun, hər bir insanın borcudur ki, onlara arxa, dayaq olsun. Yenə də deyirəm, dövlət və mən Prezident kimi daim onların problemləri ilə maraqlanıram, bu problemləri həll edirəm, daim onlarla bir yerdəyəm. Hər bir dövlət məmuru da, bax, eyni hərəkətlər etməlidir".

**"Biz müzəffər xalq kimi yaşayırıq, ləyaqətlə yaşayırıq"**

**Prezident vurğulayıb ki, Azərbaycanın çox böyük perspektivləri var, çox böyük potensialı var:** "Xüsusilə İkinci Qarabağ müharibəsindəki tarixi Zəfərimizdən sonra ki, biz bu ədalətsizliyə də son qoyduq, öz gücümüzlə tarixi ədaləti bərpa etdik. Prezident İlham Əliyev bildirib ki, biz müzəffər xalq kimi yaşayırıq, ləyaqətlə yaşayırıq və ölkəmizdə işlər elə getməlidir ki, heç bir narahatedici problem olmasın, heç bir ədalətsizlik olmasın. Bütün imkanlar var - təbii sərvətlərimiz, coğrafi yerləşməyimiz, beynəlxalq nüfuz, infrastruktur layihələri. İndi hər şey göz qabağındadır. Azərbaycan necə sürətlə inkişaf edir, xüsusilə indiki şəraitdə, həm dünyada iqtisadi böhran hökm sürür, həm digər narahatedici məsələlər göz qabağındadır. İndi belə olan halda, hansısa dövlət məmuru əgər öz vəzifə borcunu şərəflə yerinə yetirmirsə, əlbəttə ki, o, cəzalandırılacaq. İmkan verə bilmərik ki, bizim uğurlu inkişafımıza kimsə kölgə salsın, kimsə hansısa yerdə özü üçün rüşvətxorluq yuvası qursun və dövlətimizin əsaslarını sarsıtsın".

**"Bütün dövlət məmurlarına, o cümlədən sahibkarlara dediyim sözlər hesab edirəm ki, əsas olmalıdır"**

**Prezident bildirib ki, bizim üçün hər qarış torpaq qiymətlidir, dəyərlidir və torpaqdan insanlar istifadə etməlidirlər:** "Fermerlər, kəndlilər məhsul yetişdirmək üçün istifadə etməlidirlər. Biz ölkəmizin ekoloji sistemini qorumalıyıq və sizə də tövsiyələrimin biri bundan ibarətdir. Görülən və görüləcək bütün işlər elə aparılmalıdır ki, ekologiyaya ziyan dəyməsin. Xüsusilə həm Göygöl, həm Lerik, həm də Masallı çox zəngin təbiəti olan rayonlardır. Ona görə ekoloji tarazlıq, ekoloji normalar qorunmalıdır. Bunu mütləq nəzərə alın. Əminəm ki, hər bir rayonda, hər bir yerdə müasir idarəetmə qaydaları tətbiq olunarsa, bir çox problemlər aradan qaldırılacaq. Bax, dövlətin siyasəti bundan ibarətdir. Mən hər zaman Azərbaycan dövlətinin siyasətini birmənalı şəkildə ifadə edirdim, bunu ictimaiyyətə təqdim edirdim. Mənim bir çox çıxışlarım ictimaiyyət qarşısında hesabat xarakterli çıxışlardır və eyni zamanda, bütün dövlət məmurlarına, o cümlədən sahibkarlara dediyim sözlər hesab edirəm ki, əsas olmalıdır".

**"Torpaqların qanunsuz zəbt edilməsi prosesi əfsuslar olsun ki, geniş vüsət alıb"**

**Ölkə rəhbəri qeyd edib ki, hər üç rayonda kənd təsərrüfatının inkişafı üçün çox gözəl imkanlar var:** "Burada da müasir tələblərə uyğun kənd təsərrüfatı yaradılmalıdır. Müasir aqrotexniki tədbirlərin görülməsi, tətbiq edilməsi şərtilə heyvandarlıq, bitkiçilik rayonların xüsusiyyətlərinə görə inkişaf etməlidir. Bununla bağlı olan çox ciddi məsələ torpaqlardan səmərəli istifadə edilməsidir. Əfsuslar olsun ki, əvvəlki illərdə bəzi dövlət məmurları və bəzi sahibkarlar tərəfindən böyük torpaq sahələri hasarlanmışdır, qanunsuz zəbt edilmişdir. Kənd təsərrüfatı üçün nəzərdə tutulan torpaqlarda ya evlər tikilmişdir, ya da ki, sadəcə olaraq, o sahələr hasarlanıb kiminsə mülkiyyətinə çevrilmişdir. Biz bu məsələni bu yaxınlarda ciddi araşdırmağa başladıq və gördük ki, burada çox böyük pozuntular var. Vəzifəli şəxslər yerli icra orqanlarının nümayəndələrinə göstəriş verirdilər ki, o torpağı mənə ver, bu torpağı mənə ver. Beləliklə də torpaq fondu azalırdı və torpaqların qanunsuz zəbt edilməsi prosesi əfsuslar olsun ki, geniş vüsət almışdır. Bu təkcə regionlara aid olan məsələ deyil, Bakı şəhərində, Abşeron yarımadasında da belə hallar var. Yəqin siz də bilirsiniz, bu yaxınlarda ictimaiyyətin bir qrup nümayəndəsi mənə müraciət etmişdir ki, böyük tarixə malik olan Buzovna qayaları bəzi insanlar tərəfindən zəbt edilmişdir. Mən Bakı Şəhər İcra Hakimiyyətinin başçısına dərhal göstəriş verdim ki, bu məsələ araşdırılsın, mənə məruzə edilsin və mənə məruzə edildi. Çox böyük pozuntular aşkarlandı. Bu qanunsuz əməllərə kimlər əl atıb? Dövlət məmurları və bəzi dırnaqarası sahibkarlar! Onların da siyahısı var. Bu, tarixə qarşı, bizim təbiətimizə qarşı cinayətdir. Bu qayalar Bakının rəmzidir, bu qayalar əsrlər boyu sahilimizin gözəlliyini əks etdirirdi. Bu qayalara insanlar yaxınlaşırdı, orada filmlər çəkilirdi. Kimsə bunu zəbt edir, onları sındırır, özləri üçün villa tikir".

**"Vaxtilə Bakıda inşa edilmiş bir çox hündürmərtəbəli binalar indi şəhərsalma normalarına uyğun gəlmir"**

**Ölkə başçısı qeyd edib ki, sahibkarlıq inkişaf edir, mən bunu dəstəkləyirəm və bunun üçün bir çox addımlar atılır:** "Ancaq burada da bütün qaydalara riayət edilməlidir. Xüsusilə həm inşaatda, həm kənd təsərrüfatı sahəsində, turizm sahəsində. Baxmaq lazımdır, yaradılan obyekt nə dərəcədə bu və ya digər bölgənin memarlıq üslubuna cavab verir, nə dərəcədə müasir normalara cavab verir, bunun inşaat zamanı əmsalı normalara uyğundur, yoxsa yox. Əfsuslar olsun ki, vaxtilə Bakı şəhərində inşa edilmiş bir çox hündürmərtəbəli binalar indi heç bir şəhərsalma normalarına uyğun gəlmir. Nə üçün? Çünki qanunsuz işlər görülüb. Rayon icra başçıları qanunsuz icazələr verib və bunun nəticəsində də faktiki olaraq şəhərsalma prinsiplərinə böyük zərbə dəyib. Ona görə indi bunları düzəltmək çox çətindir. Amma biz indi bu mərhələdə imkan verə bilmərik ki, inşaatda şəhərsalma normaları pozulsun. Məsələn, işğaldan azad edilmiş rayonlarda bütün şəhərsalma, ekoloji normalar 100 faiz gözlənilir, özü də dünyanın ən inkişaf etmiş ölkələrinin standartları əsasında. Bax, siz də öz fəaliyyətinizdə bu məsələlərə ciddi fikir verməlisiniz və nəzarət etməlisiniz".

**"İnsanlarla bir yerdə olmalısınız, ictimaiyyətlə bir yerdə olmalısınız"**

**Prezident bildirib ki, rəhbərlik edəcəyiniz rayonlarda işlərin daha yaxşı getməsi üçün ictimai nəzarət olmalıdır:** "Siz ictimai nəzarətdən çəkinməməlisiniz. İctimai nəzarət, ictimaiyyətin fəallığı, mövcud olan problemlərə dövlət orqanlarının diqqətinin cəlb edilməsi sizin işinizə kömək göstərəcək. Ona görə insanlarla bir yerdə olmalısınız, ictimaiyyətlə bir yerdə olmalısınız və biz ancaq bu yolla ölkəmizi inkişaf etdirə bilərik. Bir daha demək istəyirəm, sizə böyük etimad göstərilir. Mən hesab edirəm ki, son vaxtlar ölkəmizdə gedən çoxşaxəli islahatlar, o cümlədən idarəetmə sahəsində aparılan islahatlar, həmçinin kadr islahatları bütün Azərbaycan ictimaiyyətinə bizim siyasətimizi göstərir, bizim niyyətimizi göstərir".

**"Bəzi rayonlarda sosial işlərə cəlb edilənlərə çatacaq vəsait mənimsənilib"**

**Dövlət başçısı bildirib ki, sahibkarlar da bölgələrdə bütün quruculuq işlərində fəal iştirak edirlər:** "İş yerlərinin yaradılması xüsusi əhəmiyyət kəsb edir. Çünki ölkə əhalisi artır. Azərbaycan müstəqilliyə qovuşanda əhalimiz 7 milyondan bir qədər çox idisə, bu gün 10 milyondan çoxdur. Bu, təbii olaraq tələb edir ki, iş yerlərinin açılması prosesi daimi xarakter alsın. Eyni zamanda, biz işsizliklə bağlı mübarizədə də ciddi addımlar atırıq, ödənişli sosial işlərin yaradılması da geniş vüsət almışdır. Hər rayon üzrə kvota var. Əfsuslar olsun ki, bəzi rayonlarda bu işlərə cəlb ediləcək insanlar işlərə cəlb olunmamış, əksinə, onlara çatacaq vəsait rayon icra başçıları və digər məsul şəxslər tərəfindən mənimsənilmişdir".

**İsmayıl**

## Azərbaycanda istilik enerjisindən istifadə qaydaları hazırlanacaq

**Azərbaycanda istilik enerjisindən istifadə qaydaları hazırlanacaq.**

Bu, Prezident İlham Əliyevin "Elektroenergetika haqqında" qanuna dəyişikliyin tətbiqi barədə fərmanında əksini tapıb.

Fərmana əsasən, Nazirlər Kabineti "Elektroenergetika haqqında" qanuna uyğun olaraq istilik enerjisindən istifadə qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla iki ay müddətində təsdiq etməlidir.

## Reza Deqati "Dostluq" ordeni ilə təltif edildi



**Prezident İlham Əliyev Reza Deqatinin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında** Sərəncam imzalayıb.

Sərəncamla Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında çoxillik səmərəli fəaliyyətinə görə Reza Deqati "Dostluq" ordeni ilə təltif edilib.

## Akar ABŞ-ın müdafiə naziri ilə telefon danışığı aparıb

### Ukrayna taxılının daşınmasını müzakirə olunub



**Türkiyənin milli müdafiə naziri Hulusi Akar və ABŞ-ın Müdafiə naziri Lloyd Ceyms Ostin arasında telefon danışığı aparılıb.**

APA-nın İstanbul müxbirinin verdiyi xəbərə görə, bu barədə Türkiyə Müdafiə Nazirliyindən bildirilib.

Qeyd olunub ki, danışıq zamanı ikitərəfli və regional məsələlər müzakirə olunub.

Bundan əlavə, tərəflər Akar və həmkarı Ostin müdafiə və təhlükəsizlik məsələləri, Ukraynadan taxıl daşınması, terrorla mübarizə, Türkiyə-Yunanıstan münasibətləri və "F-16" təyyarələrinin tədarükünə dair fikir mübadiləsi aparıblar.

## Zəngilan hava limanının böyük iqtisadi səmərəsi olacaq

### Bu, eyni zamanda Şərqi Zəngəzura daha çox turistlərin gəlməsinə şərait yaradacaq



**Zəngilanda yeni inşa edilən beynəlxalq hava limanına ZZE - yeni üçhərfli beynəlxalq kod təyin edilib.**

AZAL xəbər verir ki, müvafiq qətnamə Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının sərnişin daşımalarına dair konfransında qəbul edilib. Qurumdan bildirilib ki, Zəngilan rayonundakı beynəlxalq hava limanı Şərqi Zəngəzurda mühüm infrastruktur layihələrindən biridir: "O, regionun sosial-iqtisadi inkişafında əhəmiyyətli rol oynayacaq. Zəngilan hava limanına üçhərfli IATA kodunun təyin edilməsi burada iri və müasir logistika mərkəzinin yaradılması istiqamətində daha bir addımdır". Hava limanına təyin edilmiş unikal kod şəhərin (Zəngilan) və yerləşdiyi regionun (Şərqi Zəngəzur) adından istifadə etməklə yaradılıb. Sərnişin və yük daşımalarının kommersiya təşkilinə xidmət edir. O, beynəlxalq təxsisetmə zamanı və aerovoğzal komplekslərinin yerüstü xidmətlərinin fəaliyyətində, yəni beynəlxalq aviabilet satışı sistemlərində, uçuş cədvəlində, hava əlaqəsində və sairədə istifadə olunur. Qeyd edək ki, Zəngilanda aeroportun inşasına ötən ilin yazında başlanılıb və bu ilin sentyabr ayında başa çatdırılması planlaşdırılır. Burada bütün tip sərnişin və yük təyyarələri eniş edə bilər. Beynəlxalq hava limanının uçuş-eniş zolağının uzunluğu 3 000 metr, eni isə 60 metrdir. Onun terminalının buraxılış qabiliyyəti saatda 200 sərnişin üçün nəzərdə tutulub.

**Hava limanının əhəmiyyəti barədə "Şərq"ə danışan millət vəkili Vüqar Bayramov deyib ki, xarici dövlətlərin, xüsusən Avropa ölkələrinin təcrübəsi göstərir ki, iqtisadi inkişaf eyni zamanda hava nəqliyyatının təkmilləşdirilməsi, beynəlxalq hava limanlarının istifadəyə verilməsindən asılıdır.** Deputatın sözlərinə görə, nəzərə alaq ki, Zəngilan hava limanı həm həmin rayonun potensialının reallaşması, eyni zamanda Şərqi Zəngəzurun yaratdığı iqtisadi məhsulların ölkə və dünya bazarlarına çıxarılması baxımından vacibdir: "Bu, bir tərəfdən imkan verəcək ki, Şərqi Zəngəzurda yaranan dəyər digər ölkələrə ixrac oluna bilsin. Həmçinin, Şərqi Zəngəzura daha çox turistlərin gəlməsinə səbəb olacaq. Turizmin inkişafına xüsusi töhfə verəcəyinə şübhə yoxdur. Nəticə etibarı ilə ölkəyə valyuta daxil olmasını stimullaşdıracaq. Şərqi Zəngəzurun böyük və fasiləsiz turizm potensialı var. Hava limanı həmin potensialın reallaşmasını sürətləndirəcək".

**Parlament üzvü vurğulayıb ki, Zəngilan hava limanı Şərq-Qərb beynəlxalq hava dəhlizinə inteqrasiya olunacaq:** "Bu da imkan verəcək ki, Azərbaycan üzərindən daşınan beynəlxalq yüklərin həcmi artsın və dövlət gəlirləri çoxalsın. Ona görə də Zəngilan hava limanı bir yandan Azərbaycanın təhlükəsizliyinin formalaşmasına xüsusi töhfə verməklə yanaşı, həm də iqtisadi baxımdan böyük önəm kəsb edir".

**İsmayıl Qocayev**

İsmayıl Qocayev

# Qoşulmama Hərəkatının Gənclər Təşkilatı yaradılacaq

## "Gənc nəsil həm də qlobal tərəqqinin lokomotividir"

**Dünən Bakıda Qoşulmama Hərəkatının Gənclər Sammiti keçirilib. Sammitdə Qoşulmama Hərəkatına üzv olan 60-dan çox ölkənin gənc nümayəndəsi iştirak edib. Sammitin müxtəlif seqmentləri çərçivəsində iştirakçılar tədbirin yekun sənədlərini müzakirə edəcəklər. QH Modeli Simulyasiya məşğələsi, eləcə də təşkilatların effektiv idarə edilməsi barədə təlim sessiyasında iştirak edəcək, müxtəlif rəsmilərin iştirakı ilə panel müzakirələri, təqdimatlar keçiriləcək.**

Sammitin bağlanış mərasimində Azərbaycan Respublikasının Xarici işlər naziri Ceyhun Bayramovun iştirakı nəzərdə tutulur. Sonuncu günü iştirakçıların Şuşa şəhərinə səfər etməsi planlaşdırılır. Tədbirin əsas əhəmiyyəti ondan ibarətdir ki, Sammit müddətində iştirakçılar ötən ilin noyabr ayında təsis edilmiş QH Gənclər Şəbəkəsinin beynəlxalq təşkilata çevrilməsi məsələsini müzakirə edəcək. Bu xüsusda müvafiq razılıq əldə olunarsa, Şuşa şəhərində Şəbəkənin Təşkilata çevrilməsi, eləcə də yaranacaq Təşkilatın loqo və bayrağının təsdiqlənməsi barədə qərar qəbul edilməsi gözlənilir. Sammit iyulun 29-da yekunlaşacaq.

**"Şuşada əsası qoyulacaq təşkilat qlobal arenada vacib təşkilata çevriləcək"**

**Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin hazırkı sədri Orduxan Qəhrəmanzadə vurğulayıb ki, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə Prezident İlham Əliyevin irəli sürdüyü iki əsas təşəbbüsdən biri Hərəkatın Gənclər Şəbəkəsinin yaradılması idi.** O bildirib ki, 2021-ci ili oktyabrında təsis olunan Gənclər Şəbəkəsinin bu gün Bakıda ilk sammiti keçirilir: "5 gün ərzində davam edəcək sammitdə 60-dan çox ölkənin gənc nümayəndələri iştirak edir. Biz sammit çərçivəsində ilk dəfə Azərbaycanda Qoşulmama Hərəkatının simulyasiya iclasını keçirəcəyik, tədbir çərçivəsində bir çox mövzular müzakirə olunacaq. Tədbirin əsas əhəmiyyəti ondan ibarətdir ki, bu sammit çərçivəsində ilk dəfə olaraq Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin Gənclər Təşkilatına çevrilməsi istiqamətində addımlar atılacaq, qərarlar veriləcək". O deyib ki, sammitin son günü iştirakçıların Şuşaya səfəri baş tutacaq və sammit boyu müzakirə olunan qərarlar Şuşada qəbul olunacaq: "Ümid edirik ki, Şuşada Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsini Gənclər Təşkilatına çevirəcək qərar qəbul edəcəyik. Və inanırıq ki, Şuşada əsası qoyulacaq bu təşkilat qlobal arenada vacib təşkilata çevriləcək".



© Trend News Agency

**"Fəal və yaradıcı gənclər arasında dialoq bəşəriyyətin üzləşdiyi problemlərin müzakirəsində vacib rol oynayır"**

**Sammitin açılış mərasimində Prezident İlham Əliyevin Sammit iştirakçılarına ünvanlanmış müraciəti Azərbaycan Respublikasının Gənclər və idman naziri Fərid Qayıbov tərəfindən səsləndirilib**: "Bu Sammit gənclər arasında əlaqələrin möhkəmləndirilməsi, mütərəqqi düşüncənin paylaşılması və qarşılıqlı faydalı əməkdaşlığın gücləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır. Hər bir ölkənin sosial inkişafının, rifahının aparıcı qüvvəsi olan gənc nəsil həm də qlobal tərəqqinin lokomotividir. Çağırışlarla dolu müasir dünyada fəal və yaradıcı gənclər arasında dialoq bəşəriyyətin üzləşdiyi problemlərin müzakirəsi, onların həllinə dair ideya və baxışların bölüşməsində vacib rol oynayır. Azərbaycanda əhalinin təxminən 23%-ni təşkil edən gənclərin diqqət və qayğı, onların milli-mənəvi dəyərlər və vətənpərvərlik ruhunda tərbiyə edilməsi dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Bu gün Azərbaycanda milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi qurub yaşadan, eyni zamanda, ümumbəşəri, mütərəqqi ideyaları mənimsəyərək qloballaşan dünyada inteqrasiya etməyə qadir olan nəsil yetişib. Məhz bu milli dəyərlərə hörmət ruhunda böyümüş gənclərimiz 30 il işğal altında olmuş torpaqlarımızın azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində əvəzsiz xidmətlər göstəriblər. Biz belə gənclərimizlə fəxr edirik". Dövlət başçısı qeyd edib ki, Azərbaycan beynəlxalq müstəvidə də gənclər siyasətinin təşviqini daim diqqət mərkəzində saxlayır: "Gənclərimizin aparıcı beynəlxalq təsisatların işində yaxından iştirak edir və yeni gənclər platformasının yaradılmasında təşəbbüslərlə çıxış edirlər. Qeyd etmək istərdim ki, Azərbaycanın təşəbbüsü ilə təsis edilmiş Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsi üzv ölkələrin gənclər dialoqunu, onların davamlı tərəqqisinə nail olmaq üçün atdığımız addımlardan biridir. BMT-nin Baş Assambleyasından sonra dünyada ikinci ən böyük təsisat olan Qoşulmama Hərəkatına 2019-cu ildən sədrlik edən ölkəmizin tarixi Bandunq prinsiplərini rəhbər tutaraq üzv ölkələr arasında qarşılıqlı anlaşma və dəstəyin, həmrəyliyin və əməkdaşlığın genişləndirilməsində, multikulturalizmin inkişafında, qlobal çağırışların həll istiqamətində hərəkat rolunu daha da artırmasında böyük töhfələr verib. Qoşulmama Hərəkatının sədrliyimiz müddətində yekdilliklə 2023-cü ilə qədər 1 il daha uzadılması Azərbaycanın üzv ölkələr arasında qazandığı nüfuzun, fəaliyyətimizə verilən yüksək qiymətin və bizə olan inam və etimadın bariz göstəricisidir".

**"Gənclər Təşkilatı qlobal miqyasda ən mötəbər təşkilatlarından birinə çevriləcək"**

*Ölkə rəhbəri qeyd edib ki, Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan COVID-19 pandemiyasına qarşı mübarizədə beynəlxalq ictimaiyyətin səfərbər olmasında aparıcı rol oynayıb. Ehtiyacı olan ölkələrə maliyyə, humanitar və digər yardımlar göstərib:* "Ölkəmiz eyni zamanda, hərəkatın təsisatlanması istiqamətində də təşəbbüslərlə çıxış edib. Belə mühüm addımlardan biri Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin yaradılması oldu. Gənclər Sammitinin keçirilməsi və Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin Gənclər təşkilatına çevrilməsi ilə bağlı vacib qərarların məhz ölkəmizdə qəbul edilməsi bizi sevindirir. Biz bunu Qoşulmama Hərəkatına sədrliyimizin növbəti uğuru kimi dəyərləndiririk. İnanıram ki, sammit zamanı təsis ediləcək Qoşulmama Hərəkatının Gənclər Təşkilatı qlobal miqyasda ən mötəbər gənclər təşkilatlarından birinə çevrilərək və öz ölkələri arasında həmrəyliyin möhkəmləndirilməsinə və birgə fəaliyyətin genişlənməsinə töhfə verəcək. Hamınızı bir daha ürəkdən salamlayır, sammitin işinə uğurlar arzu edirəm".

**"BMT də daxil olmaqla, qlobal platformalar gənclər üçün imkanlar təqdim etməlidir"**

*BMT Baş Assambleyasının prezidenti Abdulla Şahidin sammit iştirakçılarına ünvanladığı məktubunda deyilib ki, gənclər COVID-19 pandemiyasından iqlim dəyişikliyinə qədər qlobal çağırışların həllində fəal rol oynamalıdır.* Şahid bildirib ki, gənclər qlobal dayanıqlılığın inkişafına töhfə verir. O, postpandemiya dövründəki bərpada gənclərin aktiv fəaliyyətinə ümid etdiyini əlavə edib: "BMT və onun institutlarında inklüzivlik və fərqlilik indi daha vacib olub. Qoşulmama Hərəkatı dünyanın müxtəlif nöqtələrindən olan gənclər üçün iştirak və mədəni mübadilə istiqamətində platforma təklif edir və bu, vacibdir". O vurğulayıb ki, BMT də daxil olmaqla, qlobal platformalar gənclər üçün imkanlar təqdim etməlidir. Abdulla Şahid çıxışının sonunda gənclərə səmərəli müzakirə və fikir mübadiləsi arzulayıb.



# Qərb üçün artıq müharibə mövzusu qapanıb

## Azərbaycan Avropa İttifaqının bölgədə vasitəçiliyini dəstəkləməklə birdən çox hədəfə nail oldu

**Avropa Birliyi "Dağlıq Qarabağ" söz birləşməsindən rəsmi olaraq tam imtina edib. Bu barədə Ermənistan Respublika Partiyası sədrinin müavini Armen Aşotyan bildirib. Aşotyanın sözlərinə görə, onun bəyanatı Avropa Komissiyasının baş katibi tərəfindən imzalanmış və bu il iyulun 18-də dərc edilmiş rəsmi sənədə əsaslanır. Sənəd Azərbaycanla tərəfdaşlığın həyata keçirilməsi haqqında" məruzə adlanır:**

"Avropa Birliyinin Azərbaycanla tərəfdaşlıq proqramı var. Bu hesabatda onun Azərbaycanla münasibətləri, müxtəlif sahələrdə qeydə alınmış qiymətləndirmələri, problemləri və uğurları ümumiləşdirilir. Təbii ki, Azərbaycanla münasibətlər kontekstində təhlükəsizlik problemlərinə də qiymət verilib. Bütün bu mətndə heç olmasa bir dəfə "Dağlıq Qarabağ" terminindən istifadə olunmur. "Dağlıq Qarabağ" söz birləşməsi "Azərbaycanın Qarabağ iqtisadi zonası" termini ilə əvəzlənib. Beləliklə, rəsmi Brüssel "Dağlıq Qarabağ" ifadəsindən tam imtina etdi. Avropa Birliyinin rəsmi rəyinə görə, Dağlıq Qarabağ artıq yoxdur".

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə bildirib ki, Avropa İttifaqının "Dağlıq Qarabağ"dan imtinası Brüssel görüşləri ərəfəsində baş vermişdi. Analitikin fikrincə, bu, Bakının həyata keçirdiyi siyasətin müsbət nəticəsi hesab oluna bilər:** "Azərbaycan Avropa İttifaqının bölgədə vasitəçiliyini dəstəkləməklə birdən çox hədəfə nail oldu. Birincisi, Qərbdə Minsk qrupuna alternativ yaratdı və bu, həmsədrlik formatının arxa plana keçməsi ilə nəticələndi. Bu məsələdə Rusiyanın da maraqları olduğu üçün rəsmi Bakı düzgün strategiya tətbiq etdi. İkincisi, Rusiyaya qarşı alternativ qazandı. Minsk qrupunun ləğvini istəyən Bakı üçün Moskva qarşısında alternativsiz qalmaq sərfəli deyildi. Bu baxımdan, həm alternativ qazanmalı, həm də bu alternativ Minsk qrupu formatının sıradan çıxmasına xidmət etməli idi. Buna nail oldu. Üçüncüsü, Avropa İttifaqının proseslərdə iştirakı post-münaqişə reallığını qəbul etməsi halında mümkün ola bilərdi. Brüssel bu reallıqla razılaşdı. Brüssel masasında Bakının Zəngəzur dəhlizinin "yol məntiqi" ilə açılmasına şifahi razılığı da bu siyasi nəticənin əldə edilməsinə qarşı "güzəşti" hesab edilə bilər. Buna nail olduqdan sonra "yol məntiqi" "dəhliz məntiqi" ilə əvəzləndi".

**A.Nərimanlı vurğulayıb ki, burada enerji maraqları da rol oynayır:** "Xüsusilə Ukrayna müharibəsindən sonra Rusiya enerjisindən asılılığını minimuma endirmək istəyən Avropa İttifaqı Azərbaycanın maraqlarını nəzərə almağa məcbur olub. Təbii ki, Qərbdə lazım olarsa, yeni maraqları tələb edərsə, yenidən "Dağlıq Qarabağ" terminınə üz tuta bilərlər. Amma əsas məsələ rəsmi sənədlərdir. İstər Brüssel görüşlərinin yekun bəyanatlarında, istərsə Avropa Komissiyasının son sənədində Bakının istəyi nəzə alınır. Bu, Qərb yarımkürəsində də Qarabağ münaqişəsinin bitdiyinin rəsmi təsdiqidir. Belə vəziyyət Ermənistanı da iddiasından əl çəkməyə məcbur edə bilər. Əslində Baş nazir Nikol Paşinyanın "bizdən status iddiasını aşağı salmağı tələb edirlər" açıqlaması da göstərdi ki, bunu Avropada istəyiblər. Bu, özünün vasitəçiliyi ilə əldə olunmuş razılaşmaların icrası baxımından Rusiyaya sərf edir. Yeni Moskva çalışır ki, bölgədə maraqları təmin edilsin, kommunikasiya açılsın, sərhəd məsələsi həll olunsun. Qarabağ məsələsi Bakı ilə bazarlıq üçün sonraya saxlanılsın. Rusiya üçün hazırda prioritet vasitəçiliyi ilə imzalanan bəyannamələrin icrasıdır. Əlaqələndirmə, sus, kommunikasiyaların açılması baxımından buna çalışır. Bu müddətdə Qarabağ məsələsini arxa plana keçirmək, bu məsələ üzərində Bakı ilə toqquşmaq istəmir. Lakin perspektivdə Rusiya maraqlarının nəzərə alınması üçün bu kartdan istifadəni davam etdirəcək".

İsmayıl Qocayev

# İcra başçıları xalqa xidmət göstərməlidir

## Prezidentin tənqidləri yerindədir və doğrudur

**İcra hakimiyyəti orqanlarında səmərəliliyinin artırılması diqqət mərkəzindədir. Bu qurumların fəaliyyətində operativliyin və şəffaflığın təmini məqsədilə bir çox tədbirlər həyata keçirilir. Bu xüsusda Prezident İlham Əliyev Göygöl, Masallı və Lerik rayonuna yeni icra başçıları təyin edib.**

Elvin Nazim oğlu Paşayev Göygölün, Əkbər Bəxtiyar oğlu Abbasov Lerikin, Araz Süleyman oğlu Əhmədov isə Masallı RİH başçıları vəzifələrinə təyinat alıblar.

Həmçinin Prezident İlham Əliyev Araz Əhmədovu Masallı Rayon İcra Hakimiyyətinin başçısı, Əkbər Abbasovu Lerik Rayon İcra Hakimiyyətinin başçısı və Elvin Paşayevi Göygöl Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar görüş keçirib.

"Bunu mən sizə deyirəm və bütün dövlət orqanlarının nümayəndələrinə deyirəm, eyni zamanda, qanunsuz işlərlə məşğul olmaq istəyən insanlara deyirəm:



Əl çəkin bundan! Cəzalandırılacaqsınız və cəzalandırılırlar. Biz kiminsə tamahına, kiminsə şəxsi maraqlarına görə ölkəmizin uğurlu inkişafına kölgə sala bilmərik.

Ona görə torpaqların qanunsuz zəbt edilməsi prosesi araşdırılmalıdır. Həm rəhbərlik edəcəyiniz rayonlarda, həm bütün ölkə üzrə, Abşeron yarımadasında, sahilboyu ərazilərdə, bütün rayonlarda araşdırılmalıdır və qanunsuz əməllərə son qoyulmalıdır", - İ.Əliyev söyləyib.

**Yeni təyinatlar "Şərq"ə dəyərləndirən hüquq müdafiəçisi Novella Cəfəroğlu bildirib ki, icra başçıları millətin sözünü eşitməsə, etinasız yanaşsa, onları hansı cəzanın gözlədiyini başa düşməlidirlər:** "İcra hakimiyyəti millətə uyğun davranış sərgiləməlidir. İcra başçısı işi düzgün yerinə yetirməyəndə, prezidenti tənqid edirlər. Ona görə dövlət başçısı doğru addım atıb. İcra hakimiyyətlərinin yanında İctimai Şura yaradılıb. Onlar operativ işləməlidir. İcra düzgün addım atmayanda, Prezident Aparatına yazmalıdılar".

**Millət vəkili Aqil Abbas da vurğulayıb ki, icra başçıları xalqa xidmət etməlidirlər:** "İdarə, müəssisə, təşkilatlar icra başçılarına tabe deyillər. Nə qaz, nə su, nə elektrik idarəsi onların səlahiyyətlərinə daxildir. Hamısı mərkəzləşib. Onların torpaq vermək, bina tikmək hüququ da yoxdur".

Aygün Tahir

# Koronavirus hələ də bizimlədir və hələ də təhlükəlidir

## Səhiyyə Nazirliyi: "Biz sadə tədbirlərə əməl etməklə özümüzü və yaxınlarımızı təkcə koronavirusdan deyil, digər yoluxucu xəstəliklərdən də qoruya bilərik"

**Təəssüf ki, Azərbaycanda da COVID-19 infeksiyasına yoluxanların sayında artım müşahidə olunur. Qonşu ölkələrdə də həftəlik xəstələnmə hallarında artım var.**

Bunu Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru Qəhrəman Haqverdiyev deyib.

O bildirib ki, son iki həftə ərzində qonşu Türkiyə, İran, Gürcüstan və Rusiyada koronavirusa yoluxanların sayında əhəmiyyətli dərəcədə artım qeyd edilib.

"Əhali arasında belə bir fikir yayılıb ki, koronavirus xəstəliyi artıq kəskin respirator virus infeksiyası (KRVİ) kimi davam edir və xəstələnsə də, qısa müddət ərzində sağalır. Amma unutmamalıyıq ki, xəstəliyin hətta yüngül halı belə, post-COVID sindromuna, 6 ay və daha çox davam edə bilən "uzunmüddətli COVID" adlanan sindroma səbəb ola bilər. COVID-19 virusunun yeni mutasiyalarının meydana çıxması ilə onun klinik mənzərəsi çox da dəyişməyib. Bu, qızdırma, zəiflik, baş ağrıları və əzələ ağrısı, qarın ağrısı və ishaldır. Həmçinin profilaktika tədbirləri də dəyişməz qalıb.

Belə ki, əllərin tez-tez və düzgün yuyulması (ən azı 20 saniyə), sosial məsafənin



saxlanması (təxminən 1,5-2 metr), insanların sıx toplaşdığı yerlərdə, xüsusən, qapalı məkanlarda və ictimai nəqliyyatda maskaların taxılması, otaqların tez-tez havalandırılması vacib tövsiyələrdəndir. İnfeksiya əlamətləri varsa, həkimə müraciət etmək və ətrafdakı insanlarla təmasdan çəkinmək, simptomlar davam edərsə, COVID infeksiyasının olub-olmamasını bilmək üçün testdən keçmək mütləqdir.

Vətəndaşlarımıza tövsiyə etmək istərdim ki, diqqətli olsunlar. Unutmayaq, yeni növ koronavirus hələ də bizimlədir və hələ də təhlükəlidir. Bu sadə tədbirlərə əməl etməklə özümüzü və yaxınlarımızı təkcə koronavirusdan deyil, digər yoluxucu xəstəliklərdən də qoruya bilərik", - deyə o qeyd edib.



# Zamanı yetişib

## Qarabağda anti-terror əməliyyatları başlaya bilər

Ermənistan tərəfinin ziddiyyətli açıqlamaları Azərbaycana son addımı atmaq üçün hüquqi əsaslar yaradıb

**Ermənistanın keçmiş ombudsmanı Arman Tatoyan Azərbaycanın rus sülhməramlılarının müvəqqəti nəzarəti altında olan hissəsində Ermənistan hərbi birliklərinin olması faktını tamamilə təkzib edib. Erməni və rus mediası iki gündür onun əsassız iddialarını təbliğ etməklə məşğuldur.**

Məsələ ondadır ki, Ermənistanın Baş Qərargah rəisinin müavini Qarabağa bundan sonra çağırışçıların deyil, muzdlu əsgərlərin göndəriləcəyini və oradakı həqiqi hərbi xidmətçilərin müqaviləli hərbçilərlə əvəzlənəcəyini bildirir. Azərbaycanın kəskin etirazından sonra Ermənistan TŞ katibi Armen Qriqoryan Qarabağdakı Ermənistan hərbçilərinin çıxarılacağını rəsmən elan edir. Ancaq tatoyanlar media təbliğatçıları ilə birləşib bunu təkzib etməyə çalışırlar. Ən qəribəsi isə budur ki, bu məqamda Azərbaycan ittiham edilir. Tatoyan bildirir ki, bu yalançı ideyanı ancaq Azərbaycan təbliğ edir. Tatoyan deyir ki, guya, Azərbaycan bu təbliğatı aparmaqla güc tətbiqinə əsaslar hazırlayır. Halbuki, Ermənistan 10 noyabr 2020-ci il bəyanatının tələbini bir il 9 aydır icra etmədiyini ən yüksək səviyyədə etiraf edib. Rus sülhməramlıların yerləşdirilməsi ilə paralel olaraq erməni hərbi birlikləri Azərbaycan ərazisini tərk etməli idi. Erməni tərəfi iddia edir ki, guya, Qarabağda yaşayan ermənilərin "özünümüdafiə qüvvələri"nin onlara aidiyyəti yoxdur. Yəni sabah Qarabağda erməni əsgərə rast gəlsək, bu, Ermənistan deyil, Qarabağa sülhməramlıların köçürüb gətirdiyi və yaşamaları üçün günlük qida təminatını ödədiyi, humanitar yardım etdiyi ermənilər olacaq. Dolayı yolla Ermənistan hərbi birliklərinin Qarabağdan tam çıxmayacağını, görüntü naminə bəzi qüvvələrin çıxacağını deyir.

**AĞ Partiya sədrinin müavini Əhəd Məmmədli "Şərq"ə bildirib ki, ermənilər Azərbaycana qarşı əllərində qalmış ən son vasitədən, informasiya savaşından istifadə edirlər. Partiya təmsilçisinə görə, belə bəyanatlar həm də daxili auditoriyanı sakitləşdirmək üçün vacibdir:** "Məqsədli şəkildə bu cür absurd versiyalar ortaya atılır. İrəvan rəsmən bəyan edir ki, Ermənistana məxsus hərbi qüvvələr sentyabr ayınadək Qarabağ ərazisindən çıxarılacaq. Lakin bir sıra erməni siyasətçiləri, media strukturları iddia edirlər ki, Qarabağı Ermənistanın silahlı qüvvələri tərk edəcək. Ancaq qondarma rejimin separatçıları, qanunsuz silahlı qruplaşma orada qalacaq. Yaxud da bildirirlər ki, muzdlu erməni silahlıları Qarabağda saxlanılacaq. Düşünürəm ki, rəsmi açıqlamadan sonra Ermənistan tərəfindən belə bəyanatların gəlməsi yolverilməzdir. Azərbaycan üçün artıq bütün imkanlar yaranır ki, Qarabağda anti-terror əməliyyatına başlasın. Bunun üçün hüquqi əsaslarımız kifayət qədərdir. Sadəcə, rəsmi Bakı Rusiya sülhməramlıları faktorunu nəzərə alaraq, səbr göstərdi, təmkinli davranış sərgilədi. Ancaq hər səbrin sonu var. İlin sonuna qədər Qarabağda nəinki təkcə Ermənistana məxsus ordu birləşmələri, ümumiyyətlə heç bir silahlı erməni qalmamalıdır".

**İsmayıl Qocayev**

# Ermənistanda Rusiyanı tənqid edənlərin sayı çoxalıb

## Politoloq: "Bölgədə ABŞ və Avropa İttifaqının mövqeləri güclənir"



**Rusiya Xarici Kəşfiyyat Xidmətinin rəhbəri Sergey Narışkin həm Ermənistana, həm də Azərbaycana səfər etdi. ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin rəhbəri Ulyams Börns isə yalnız Ermənistana səfər etdi.**

Görünür, Börnsün Azərbaycanla müzakirə edəcəyi mövzusu yox idi. Çünki Ermənistandan fərqli olaraq Azərbaycanda ABŞ-ın biolaboratoriyası yoxdur.

**Politoloq Elxan Şahinoğlu deyib ki, Kreml uzun müddətdir ki, İrəvana təzyiq edir ki, həmin laboratoriya bağlansın. Analitikin sözlərinə görə, Rusiya həmin labotoriyada monitorinqin aparılmasını tələb edir:** "Vaşinqton bunun əleyhinədir. Ulyams Börns İrəvanda Baş nazir Nikol Paşinyanı inandırmağa çalışıb ki, o, Rusiyanın təzyiqi altında laboratoriyanı bağlamasın və ora rusiyalı mütəxəssisləri buraxmasın. Əslində Sergey Narışkinin də Azərbaycana gəlməsinə ehtiyac yox idi. Onu Börnsün İrəvan səfəri maraqlandırır və Paşinyanla "amerikalı baş kəşfiyyatçı sizdən nə istəyib" sualını müzakirə edib. Sadəcə, Kreml Vaşinqtondan fərqli olaraq Narışkini hər iki ölkəyə göndərməklə nümayiş etdirmək istəyib ki, Rusiya üçün həm Ermənistan, həm də Azərbaycan vacib ölkədir. Buna baxmayaraq, Azərbaycanda Rusiyanın siyasəti tənqid olunur. Rəsmi Bakı Vaşinqtonla tərəfdaşlıqdan məmnundur. Ermənistanda da Rusiyanı tənqid edənlərin sayı çoxalıb. Ermənilərin bir qismi hesab edir ki, Rusiya Azərbaycan ordusuna Qarabağda müharibə aparmasına mane olmalıydı. Qarabağın böyük hissəsi Azərbaycanın nəzarətindədir. Ermənilərin bir qismi buna görə Rusiyanı günahkar bilirlər. Bunları nəzərə alaraq bölgədə ABŞ və Avropa İttifaqının mövqeləri güclənir".

**İsmayıl**

# Türk dünyası birliyə yaxınlaşır

## Azərbaycan, Türkiyə və Özbəkistan arasındakı üçtərəfli saziş tarixi hadisəyə çevriləcək



**Azərbaycan, Özbəkistan və Türkiyə arasında üçtərəfli bəyannamə imzalana bilər. Bu barədə Özbəkistanın diplomatik mənbələrinə istinadən məlumat yayılıb. Qeyd olunub ki, sənədin avqustun 2-də Daşkənddə üç ölkənin xarici işlər, iqtisadiyyat və nəqliyyat nazirlərinin görüşü zamanı imzalanacağı nəzərdə tutulur.**

Görüş zamanı Azərbaycan tərəfini Xarici işlər naziri Ceyhun Bayramovun və iqtisadiyyatla bağlı nazirlərin təmsil edəcəyi gözlənilir. Xatırladaq ki, ötən gün Azərbaycan və Türkiyə liderləri - İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan ilə Özbəkistan rəhbəri arasında telefon danışığı olub. Prezidentlər Özbəkistan dövlət başçısı - Şavkat Mirziyoyevi ad günü münasibəti ilə təbrik ediblər. Liderlər ikili əlaqələri, regional münasibətləri müzakirə ediblər. Ekspertlərə görə, Azərbaycan və Türkiyənin türk dünyasının birliyi baxımından, Orta Asiya respublikaları ilə siyasi-iqtisadi əməkdaşlığı olduqca vacibdir.

**Politoloq Tural İsmayılov "Şərq"ə bildirib ki, Azərbaycan və Türkiyə Türk Dövlətləri Təşkilatında ən önəmli ölkələrdir. Analitik deyib ki, Azərbaycan və Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsi Türk Dövlətləri Təşkilatı daxilində koordinasiyanın daha da möhkəmlənməsinə, dərinləşməsinə səbəb olur:** "Şuşa Bəyannaməsinin ardınca Türkiyə ilə Qazaxıstan arasında bəyannamə imzalandı. Sonra cənab Prezident İlham Əliyevin Özbəkistana səfəri kontekstində Özbəkistan-Azərbaycan arasında Daşkənd bəyannaməsi imzalandı. Gələn ay Qazaxıstan rəhbəri Kasım Comard Tokayevin Azərbaycana rəsmi səfəri gözlənilir. Bütün bu hadisələrin fonunda Türk Dövlətləri Təşkilatı nəzdində ölkələrin bir-biri ilə sıx əməkdaşlıq içində olmasını, postpandemiya dövrünün iqtisadi-siyasi çətinlikləri fonunda türk dövlətlərinin vahid, ortaq strategiyalar müəyyənləşdirməsini zəruri edir. Bu kontekstdə türk respublikalarının həm təşkilat çərçivəsində, həm də qurumdan kənar əlaqələri dərinləşdirməsi çox pozitiv siyasi-iqtisadi nəticələr doğuracaq. Azərbaycan, Türkiyə və Özbəkistan arasında imzalanacaq üçtərəfli bəyannamə gələcəkdə Orta Asiyadan Avropaya qədər uzanan mühüm iqtisadi-siyasi layihələrin əsasının qoyulması deməkdir. Hesab edirəm ki, sırf bu üç ölkənin müəllifi olduqları yeni layihələr də ərsəyə gətiriləcək. Bunun nəticəsində üç ölkə iqtisadiyyatının manevr imkanları genişlənəcək".

**T.İsmayılov vurğulayıb ki, Azərbaycan, Türkiyə və Özbəkistan arasındakı üçtərəfli saziş türk dünyasının daha da birləşməsinə səbəb olacaq:** "Gələcəkdə digər dövlətləri ilə də ayrı-ayrılıqda ikili, üçlü sazişlərin imzalanma perspektivləri mümkündür. Ən mühüm və vacib faktor odur ki, Özbəkistan Mərkəzi Asiyada önəmli güc mərkəzlərindən biridir. Azərbaycan Cənubi Qafqazın lider ölkəsidir. Türkiyə isə Avropa ilə Asiya arasında əhəmiyyətli geopolitik gücdür. Üç iqtisadi-siyasi mərkəzin bir araya gələrək ortaq addım atması hər birinin qlobal nizamda mövqelərini daha da möhkəmləndirəcək".

**İsmayıl Qocayev**



**Türkiyə ilə Suriya arasında gərginlik yenidən alovlanır. Bəşər Əsədə bağlı Suriya ordusu Fərat çayının şərqinə, Türkiyə sərhədinə yaxın əraziyə əlavə qoşun yeritməyə başlayıb. Əsəd rejiminə bağlı qüvvələr kürd terrorçularla birlikdə hərəkət edirlər.**

Aydın məsələdir ki, indiki məqamda Əsəd rejiminə bağlı qüvvələrin kürd terrorçular ilə bilikdə Türkiyə sərhədinə yaxın əraziyə əlavə qoşun yeritməsi təsadüfi deyil. Xüsusilə də burada diqqətçəkən ən vacib məqam bu prosesin məhz Astana üçlüyünün Tehran sammiti sonrası baş verməsidir. Bundan öncə isə İraqın şimalında yerləşən Zaho rayonunda 8 nəfərin ölümü, 23 nəfərin isə yaralanmasına səbəb olan hücum sonrası İraqda Türkiyə əleyhinə etirazların başlaması paytaxt Bağdadda Türkiyə Mədəniyyət Mərkəzindəki türk bayrağının endirilməsi kimi hadisələrdə diqqət çəkmişdi. Hər iki proses ondan xəbər verir ki, Tehran sammitində Türkiyə, Rusiya və İran liderləri konkret razılığa gələ bilməyib. Bunu təsdiqləyən digər bir fakt da son günlər Rusiyanın Suriyadakı hərbi kontingentini artırmasıdır. Əsəd ordusunun olduğu ərazilərdə Rusiyanın hərbi helikopterlərinin patrul xidməti aparması da vacib nüanslardadır.

# Əsəd Türkiyə sərhədinə hərbi qüvvələr cəmləyir

## Proses ondan xəbər verir ki, Tehran sammitində Türkiyə, Rusiya və İran liderləri konkret razılığa gələ bilməyib

**Siyasi şərhçi Turan Rzayev "Şərq"ə deyib ki, Tehran sammitində Rusiyadan daha çox İran ilə Türkiyə razılığa gələ bilməyib. Aydın məsələdir ki, rəsmi Tehran Ankaranın bir müddətdir anonsunu verdiyi Suriyanın şimalında başladacağı yeni antiterror əməliyyatlarından narazıdır:** "Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın İrana səfəri zamanı Ali dini lider Seyid Əli Xamenei ilə görüşdə də bu hiss olundu. İran Ali dini lideri Xamenei görüş zamanı Türkiyənin "Suriyanın şimalında hər hansı hərbi addım Türkiyənin də, Suriyanın da zərərinə olacaq" dedi. Onun bu açıqlamasından sonra əvvəl İraqda Zaho insidenti və antitürkiyə aksiyaları keçirildi, indi isə İranın da dəstəklədiyi Əsəd Türkiyə sərhədinə hərbi qüvvələr cəmləyir. Hər iki hadisə proseslərin pərdə arxasında İranın olduğunu göstərir. İran Əsəd kartını oynayaraq Ankaranı ehtimal antiteror əməliyyatlarından çəkindirməyə çalışır. Yəni antiterror əməliyyatları başlasa Türkiyənin qarşısında terroristlər deyil, Suriya ordusu olacaq mesajı verilməyə çalışılır".

*Analitikə görə, Türkiyə Suriyanın şimalında antiterror əməliyyatı keçirməkdə qərarlıdır:* "Hətta Prezident Rəcəb Tayyib Ərdoğan Suriya sərhədi boyunca 30 km-lik təhlükəsizlik koridorunu tamamlamaq niyyətində olduqlarını deyib. Yəni Ankaranın indiki mənada geri addım atacağı inandırıcı deyil. Bununla belə Türkiyənin Əsəd qüvvələri ilə toqquşmaya girməsi də inandırıcı deyil. Rəsmi Ankaranın apardığı antiterror əməliyyatları BMT nizamnaməsinin 51-ci maddəsinə əsaslanır. Türkiyə də bu minval ilə Suriya sərhədi boyunca 30 km-lik təhlükəsizlik koridorunu tamamlamaq niyyətindədir. Ancaq türk qüvvələrinin ehtimal Əsəd qüvvələri ilə toqquşması prosesi antiterror əməliyyatları kontekstindən çıxarıb iki ölkə arasında müharibə kontekstinə keçə bilər. Düşünürəm ki, Ankaranın belə bir niyyəti olsun. Ehtimal ki, Ankara belə bir senaridən yayınmağa çalışacaq.

Proses bu senari üzrə cərəyan etsə, bu zaman Kremlin prosesə müdaxiləsi qaçılmazdı. Həm İran, həm də Rusiya yaxşı bilir ki, Əsədin Türkiyə qarşısında şansı yoxdur. Əsəd Türkiyəni qarşısına alsa, bu onun hakimiyyətinin sonu deməkdir".

**İsmayıl Qocayev**

# Vətəndaşların dənizə çıxışı bağlanıb

## Bakının Şıxov çimərliyindən Qaradağ rayonuna qədər bütün dəniz hasarlanıb

**Prezident İlham Əliyev dünən Araz Əhmədovu Masallı Rayon İcra Hakimiyyətinin başçısı, Əkbər Abbasovu Lerik Rayon İcra Hakimiyyətinin başçısı və Elvin Paşayevi Göygöl Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul edən zaman bir sıra əsas mövzulara toxunub. Ölkə başçısı qeyd edib ki, bəzi məmurların torpaqları qanunsuz şəkildə zəbt etməsi nəticəsində torpaq fondu azalmışdı:**

"Əfsuslar olsun ki, əvvəlki illərdə bəzi dövlət məmurları və bəzi sahibkarlar tərəfindən böyük torpaq sahələri hasarlanmışdır, qanunsuz zəbt edilmişdir. Kənd təsərrüfatı üçün nəzərdə tutulan torpaqlarda ya evlər tikilmişdir, ya da ki, sadəcə olaraq, o sahələr hasarlanıb kiminsə mülkiyyətinə çevrilmişdir. Biz bu məsələni bu yaxınlarda ciddi araşdırmağa başladıq və gördük ki, burada çox böyük pozuntular var. Vəzifəli şəxslər yerli icra orqanlarının nümayəndələrinə göstəriş verirdilər ki, o torpağı mənə ver, bu torpağı mənə ver. Beləliklə də torpaq fondu azalırdı və torpaqların qanunsuz zəbt edilməsi prosesi əfsuslar olsun ki, geniş vüsət almışdır".

Dövlət başçısı qeyd edib ki, bu, təkcə regionlara aid olan məsələ deyil, Bakı şəhərində, Abşeron yarımadasında da belə hallar var: "Yəqin siz də bilirsiniz, bu yaxınlarda ictimaiyyətin bir qrup nümayəndəsi mənə müraciət etmişdir ki, böyük tarixə malik olan Buzovna qayaları bəzi insanlar tərəfindən zəbt edilmişdir. Mən Bakı Şəhər İcra Hakimiyyətinin başçısına dərhal göstəriş verdim ki, bu məsələ araşdırılsın, mənə məruzə edilsin və mənə məruzə edildi. Çox böyük pozuntular aşkarlandı, çox böyük pozuntular. Bu qanunsuz əməllərə kimlər əl atıb? Dövlət məmurları və bəzi dırnaqarası sahibkarlar! Onların da siyahısı var. Bu, tarixə qarşı, bizim təbiətimizə qarşı cinayətdir. Bu qayalar Bakının rəmzidir, bu qayalar əsrlər boyu sahilimizin gözəlliyini əks etdirirdi. Bu qayalara insanlar yaxınlaşırdı, orada filmlər çəkilirdi. Kimsə bunu zəbt edir, onları sındırır, özləri üçün villa tikir".

Ölkə başçısının məmurların qanunsuz olaraq torpaqları mənimsəməsi ilə bağlı fikirlərinə münasibət bildirən Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının Seçki Qərargahının rəhbəri, professor Məhərrəm Zülfüqarlı "Şərq"ə açıqlamasında bildirib ki, bu problemə görə məsuliyyət icra başçılarının üzərinə düşür: "Azərbaycanda inzibati bölgü üzrə hər rayonun icra başçısı, qəsəbələrdə də icra nümayəndələri var. Bunların nəzarətindən kənar heç bir iş görmək mümkün deyil. Əgər nəsə tikmək istəsən, o saat peyda olurlar. Yəni deyilən faktların hər biri bilavasitə onların iştirakı ilə baş verir. Tikinti ilə maraqlanan insanlar bilir ki, qanunda 10 metr yüksəkliyə qədər tikili tikməyin icazəsiz olduğu yazılıb. Amma qanunun ikinci maddəsinə görə, həmin yerin layihəsi Memarlıq İdarəsi ilə razılaşdırılmalıdır. Onlar da rüşvət almasa, heç vaxt o layihəyə razılıq verməyəcəklər. Bu zaman birinci maddə itib gedir. Ona görə icra başçıları məsuliyyət daşıyır. Düzdür, bir neçə icra başçısı həbs olundu. Amma bununla da hər şeyin həll olunduğunu demək olmaz. Məsələn, Buzovnada zəbt olunan qayalıqdakı villalar söküldü. Amma bu demək deyil ki, bu kimi hallar yalnız Buzovnada baş verir. Bu, hər yerdə var. Bakının Şıxov çimərliyindən Qaradağ rayonuna qədər bütün dəniz hasarlanıb. Uzun illərdir, vətəndaşların dənizə çıxışı bağlanıb".



**M.Zülfüqarlı düşünür ki, icra başçıları qanunlara riayət edərsə, belə hallar baş verməz:** "İcra Hakimiyyəti strukturlarında da tez-tez belə islahatlar keçirilməlidir. Struktur da dəyişilməlidir. Köhnə maşına yeni sürücü qoymaqla maşın heç də hərəkət etməyəcək. Maşının özünü dəyişmək lazımdır. Hesab edirəm ki, Azərbaycanda güclü islahatlara ehtiyac var. Bundan sonra bu problemlər həllini tapa bilər".

**Çimnaz Şahlar**

# Taxıl böhranı tezliklə həll olunmayacaq

## Nə qədər ki, Rusiya-Ukrayna arasında müharibə davam edir, dünyada ümumi gərginlik qalmaqdadır



İsmayıl Qocayev

**Rusiya tərəfinin hərəkətləri ucbatından müəyyən müddət ərzində "taxıl sazişi"nin icrasına zəmanət vermək çox çətindir. Bunu Ukrayna Maliyyə nazirinin müavini Aleksandr Kava deyib. O vurğulayıb ki, Odessa, Çornomorsk və Yujnı limanlarından Ukrayna taxılının çox sürətlə ixracına başlamaq üçün hər şey edilir. Kava qeyd edib ki, saziş taxılın ixracı üçün 120 gün nəzərdə tutur:**

"Bu dəhliz yaxşı işləsə və Ukrayna daxilindəki dəniz ticarət limanlarına vaxtında taxıl çatdırmaq imkanı olsa, bu vaxt kifayətdir. Bunun müəyyən vaxt çərçivəsində baş verəcəyinə zəmanət vermək çox çətindir". Kava bildirib ki, Ukrayna taxılının ixracının nəzərdə tutulması ilə yanaşı, Rusiya tərəfi ərzaq və gübrələrinin dünya bazarlarına ixracına qoyulan məhdudiyyətlərin aradan qaldırılmasını təmin edib. Rusiya XİN başçısı Sergey Lavrov isə deyib ki, Moskva Kiyevlə məsələlərin daha geniş spektrini müzakirə etməyə hazırdır. Ancaq danışıqlar prosesinin bərpası Rusiyadan asılı deyil: "Ukrayna taxılının ixracı ilə bağlı sazişin Ukraynadakı vəziyyətin digər aspektləri ilə əlaqələndirilməsinə gəldikdə, bizim daha geniş spektri məsələlər üzrə danışıqların bərpasına heç bir etirazımız yoxdur, lakin məsələ bizdən asılı deyil". Lavrov qeyd edib ki, Ukrayna prezidentindən tutmuş onun müşavirlərinə və digər rəsmilərə qədər, hamısı Ukrayna qalib gələnə qədər heç bir danışıqlar olmayacağını vurğulayır: "Bu ukraynalıları Qərb kuratorları - istər London, istər Vaşinqton, istər Berlin və digər AB və NATO paytaxtları aktiv müdafiə edir. Ona görə də seçim onlarındır. Ancaq onlar Ukraynadan qələbəyə qədər vuruşmağı nə qədər çox tələb etsələr, biz bilirik ki, necə və kimin üçün hansı aqibət olacaq, həmçinin daha çox insan öləcək; hazırkı situasiya nə qədər çox davam etsə, bu, hər şeydən öncə Ukrayna dövləti və xalqının maraqlarına qarşıdır". ABŞ Beynəlxalq İnkişaf Agentliyinin administratoru Samanta Pauer bildirib ki, ABŞ Rusiyanın Odessaya zərbəsindən sonra taxıl ixracının "B planı" üzərində işləyir: "B planına yollar, dəmir yolu və çaylar daxildir. Barjaların göndərilməsi və dəmir yolu sisteminin tənzimlənməsi ilə onlar Avropaya daha çox uyğunlaşacaqlar və ixrac daha sürətlə həyata keçiriləcək".

O, Rusiya Prezidenti Vladimir Putinə etimad etmədiklərini qeyd edib. Bununla belə, Pauer Türkiyə və BMT-nin iştirakı ilə Ukrayna və Rusiya ilə əldə edilmiş "taxıl razılaşması"nın bir şəkildə fayda verəcəyinə ümid etdiyini deyib.

**"Taxıl ixracı" sazişi barədə "Şərq"ə danışan iqtisadçı Pərviz Heydərov deyib ki, bu saziş dünyada taxıl bazarında mövcud olan gərginliyi azaltmaq məqsədi daşıyır. Ekspertin fikrincə, sazişdən sonra taxıl üzrə dünya bazarında yaranmış gərginlik xeyli dərəcədə zəifləyəcək:** "Bu saziş özünü ilk növbədə qiymətlərdə göstərdi. Düzdür, qiymətlər çox ucuzlaşmayıb və kəskin aşağı enəcəyi də gözlənilmir. Əsas odur ki, bazardakı ajiotaj aradan qalxacaq. Ancaq taxıl problemi həll olunmayacaq. Nə qədər ki, Rusiya-Ukrayna arasında müharibə davam edir, dünyada ümumi gərginlik qalmaqdadır, belə şəraitdə taxıl böhranının qısa zamanda aradan qalxacağını gözləmək absurddur. Yaddan çıxartmayaq ki, Rusiya və Ukraynanın dünyanın taxıl istehsalı, tədarükü və ixracı sahəsində çox böyük payları var. İki ölkə arasında savaş davam etdiyi müddətcə, bu ölkələrdə əvvəlki dövrdəki kimi taxıl istehsalı və ixrac qeyri-mümkündür. Bu da o deməkdir ki, dünyada taxıla olan tələbatın ödənilməsində problemlər qalacaq. Hətta vəziyyət bir qədər də çətinləşəcək. Xüsusilə qeyd etmək lazımdır ki, dünyada taxıl böhranı Rusiya-Ukrayna müharibəsinə görə yaranmayıb. Taxıl böhranı 2020-ci ildən özünü göstərməyə başlayıb. Müharibə isə bu böhranı daha da dərinləşdirdi. İstanbulda imzalanmış "taxıl sazişi" odun üzərinə bir balaca su tökmək kimidir. Problemin uzunmüddətli həlli üçün müharibə dayanmalı, Rusiya və Ukrayna ilə yanaşı, digər ölkələr də taxıl istehsalını, tədarükünü pandemiyadan əvvəlki vəziyyətə qaytarmalıdır. O zaman taxıl böhranının aradan qalxacağını gözləməyə dəyər".



# Məmurlar Vilyam Hacıyevin həbsindən dərs almalıdır

## İcra başçılarının cəzalandırılması islahatların nəticəsidir



**İmişli Rayon İcra Hakimiyyətinin sabiq başçısı Vilyam Hacıyev barəsində həbsqətimkan tədbiri seçilib. Həbsdə olan sabiq başçı Vilyam Hacıyevə hökm oxunub və o, 12 il müddətinə azadlıqdan məhrum edilib.**

Prokuror V.Hacıyevin 13 il müddətinə azadlıqdan məhrum edilməsini istəmişdi. 2020-ci il mayın 5-də məhkəmənin qərarı əsasında Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən V.Hacıyevin xidməti və yaşadığı ünvanlarda əməliyyat-istintaq tədbirləri həyata keçirilib. Daha sonra o, vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, mənimsəmə, təkrar rüşvət alma, vəzifə saxtakarlığı faktlarına görə həbs olunub.

**Hadisə ilə bağlı "Şərq"ə danışan Qeyri-Hökumət Təşkilatları Forumunun (MQF) prezidenti Rauf Zeyni bildirib ki, məmurun cəzalandırılması ölkə prezidentinin apardığı islahatların nəticəsidir:**

"Məmurlara dəfələrlə xəbərdarlıq ünvanlanır. Düzgün, şəffaf işləmələri tələb olunur. Təəssüf ki, bir çox məmur tövsiyələrə əməl etmir, başqa yol seçir. Ölkə prezidentinin təbirincə desəm, Azərbaycanda yeganə istiqamət inkişaf yoludur. Prezidentin siyasətinin mərkəzində də vətəndaşların rifahı dayanır.

Ölkə rəhbərinin məsləhətlərinə, qanunların aliliyinə əməl etməyən məmurlar cəzalandırılır. Vətəndaş cəmiyyəti olaraq kiminsə cəza almasını istəmirik. İstəyirik elə bir idarəetmə sistemi qurulsun ki, cəzalandırılmağa ehtiyac duyulmasın.

Digər məmurlar Vilyam Hacıyevin həbsindən dərs almalıdır. Əyani görünən hadisələrdən nəticə çıxarmalıdılar.

Dövlət başçısının islahatları dəstəklənməlidir, hamı Azərbaycanın inkişafı yolunu seçməlidir".

**Aygün Tahir**

# Taksi sürücüləri kimi bütün sərnişinlər də mədəni deyil

## Bu şəxslər kollektivdə işləməyi düşünürsə, o zaman toplumda özünü necə aparmağı bilməlidir



**Ötən həftə Bakıda taksi sürücüsü avtomobildə qadını döyüb. Bildirilib ki, Suraxanı Rayon Polis İdarəsinin 32-ci Polis Bölməsinə iyulun 20-də saat 1 radələrində Qaraçuxur qəsəbəsi ərazisində taksi fəaliyyəti ilə məşğul olan sürücünün avtomobilində sərnişin qismində olan qadını döyüb quldurluq yolu ilə içərisində 150 manatı olan pulqabısını talaması barədə müraciət daxil olub.**

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində quldurluğu törətməkdə şübhəli bilinən Tərtər rayon sakini İ.Paşayev müəyyən edilərək saxlanılıb. Hadisə ilə bağlı araşdırma aparılır.

Hadisəyə heç bir haqq qazandırmaq olmaz deyən psixoloq Əfsanə Rüstəmova "Şərq"ə bildirib ki, bütün sərnişinlər mükəmməl olmadığı kimi, bütün sürücülər də mükəmməl deyil: "Əgər diqqət etsək görərik ki, təhsil insanları cəmiyyətə faydalı bir şəkildə formalaşdırır. Nəinki ali təhsilli, hətta natamam təhsilli insanlarda ucuz işçi qüvvəsi kimi işləmək onları aqressivləşdirir. Belə insanların işləyəcəyi sahələr də olduqca məhduddur. Bu vəziyyətdə sükan arxasına keçib sürücülük edənlər insanlara aqressivlik nümayiş etdirirlər. Sükan arxasındaykən özü ilə yanaşı, sərnişinin də məsuliyyətini daşımaq gərginliyi artırır. Qeyd edim ki, sürücülərin hamısının kobud olmadığı kimi, sərnişinlərin də hamısı mədəni deyil. Əgər bu şəxslər kollektivdə işləməyi düşünürsə, o zaman toplumda özünü necə aparmağı bilməlidir. Əks halda evindən çölə çıxmamalıdır. Lakin biz bir hadisəni etalon tutub, bütövlükdə bu sektorda çalışan insanları günahlandırmamalıyıq. Ümumiyyətlə, insan faktoru olan hər yerdə problemin olacağını düşünüb, etik davranışlara uyğun addımlar atmalıyıq".

**Nihat Müzəffər**

# Rus nazirin gündəliyi zəngin olub

## İstanbulda tək taxıl məsələsi müzakirə edilməyib



**"Türkiyənin böyük dəstəyi, bacarığı nəticəsində İstanbulda imzalanan "taxıl anlaşması" qardaş ölkənin dünyada oynadığı rolun dəyərini və önəmini bir daha göstərdi".**

Bunu siyasi şərhçi, iqtisadçı Natiq Cəfərli deyib. Ekspert bildirib ki, Rusiya tərəfdən görüşlərə işğalçı dövlətin müdafiə nazirinin qatılması həm də ondan xəbər verir ki, İstanbulda tək taxıl məsələsi müzakirə edilməyib: "Çox güman, Türkiyədə hələ ictimaiyyətə açıqlanmayan yeni danışıqlar masası qurulur. Müharibənin dayandırılması üçün müzakirələr başlaya bilər.

Azərbaycanın əsl, təbii, imzalımöhürlü müttəfiqi qardaş Türkiyənin bölgədə, dünyada oynadığı rolun artması, nüfuzunun yüksəlməsi məmləkətimiz üçün çox önəmli məsələdir. İndiki qarışıq dünyada Azərbaycan-Türkiyə əlaqələri yeni, daha strateji və daha sıx ittifaqa doğru inkişaf etməsi üçün zəruratdən doğan məqam yetişə bilər. Bunu həmişə diqqətdə saxlamalıyıq. Türkiyənin dünya siyasətinin mərkəzlərindən biri olması qürurvericidir".

**İsmayıl**





# Söz fədaisi...

## Ustad jurnalistin xatirəsinə həsr olunmuş kitabın təqdimatı keçirilib

**Dünən Azərbaycan Mətbuat Şurasında ustad jurnalist Şamil Şahməmmədovun xatirəsinə həsr olunmuş "Şamil Şahməmmədov. Sərt, mərd, həmdərd" kitabının təqdimatı keçirilib.**

Toplantını giriş sözü ilə açan MŞ sədri Əflatun Amaşov bildirib ki, adını Azərbaycan jurnalistika tarixinə əbədi yazdırmış söz fədaisi Şamil Şahməmmədovla bağlı kitabın ərsəyə gəlməsi onun əməyinə, həyat missiyasına böyük dəyərin müstəsna nümunəsidir. "Kitabın adı Şamil müəllimin xarakterindəki xüsusiyyətlərin bir növ toplusudur. Mən onun sərtliyini daha çox tələbkarlıq kimi qiymətləndirərdim. İşəprinsipial yanaşması ilə seçilirdi. Rəhbərlikdə müdrik sima idi və hər kəsə qayğılı münasibətin nümunəsi də məhz o idi. Yaxşı yadımdadır, 12 il öncə burada biz onun 75 illik yubileyini keçirmişdik. Həmin məclisdə sənət dostları, həmkarları Şamil müəllim haqqında xoş sözlər deyir, xatirələrini bölüşürdülər. Özü başda oturmuşdu. Birdən mənə tərəf çevrilib çox sakit tərzdə dedi: "bunlar nə vaxt məni tərifləməyi dayandıracaqlar?" Təbii, tədbirdə çıxış edib xoş sözlərə görə hamıya təşəkkürünü ifadə etdi. Amma son dərəcə təvazökar idi", - deyən Ə.Amaşov vurğulayıb ki, mənalı ömrünü tamamilə jurnalistikaya həsr etmiş Şamil Şahməmmədov Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) filalogiya fakültəsinin jurnalistika şöbəsinin bitirmişdi. Bir müddət dövlət radiosunda çalışmışdı. Hələ tələbə ikən ustad Nəsir İmanquliyev onu "Bakı"-"Baku" qəzetinə dəvət etmişdi. Ş.Şahməmmədov paytaxtda tikinti bumunun yaşandığı ötən əsrin 60-70-ci illərində görülən işlərlə, məşhur binaların, ictimai iaşə obyektlərinin inşası ilə bağlı genişhəcmli, dolğun reportajları ilə bu janra özünəxas çalarlar gətirmişdi. 30 ilə yaxın "Bakı"-"Baku"da çalışmış böyük qələm sahibi neşrdə sıravi müxbirlikdən baş redaktorluğadək yüksəlmişdi. Sevimli qəzetindən ayrıldıqdan sonra "Xalq qəzeti"ndə baş redaktor müavini kimi fəaliyyət göstərmişdi. Daha sonra Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) baş direktoru olmuşdu. "Mənə nə xoş ki, onunla birlikdə çalışmışam, ondan öyrənmişəm. Şamil müəllim sözün əsl mənasında jurnalistika məktəbi idi. Gənclərə peşənin sirlərini aşılayırdı. Bundan əsla yorulmazdı", - deyən MŞ sədri əlavə edib ki, çoxşaxəli yaradıcılıq diapazonuna malik Ş.Şahməmmədov jurnalistika ilə yanaşı, ədəbi-bədii tərcümə ilə də məşğul olurdu. Futbolla əlaqədar təhlilləri oxucular tərəfindən böyük maraqla qarşılanırdı. Hər kəs onu həm də mahir idman jurnalisti kimi də tanıyırdı. Ə.Amaşov çıxışında həmçinin təqdimatı keçirilən "Şamil Şahməmmədov. Sərt, mərd, həmdərd" kitabını ustad jurnalistin parlaq şəxsiyyətinə, yaradıcılıq irsinə dəyərin nümunəsi kimi qiymətləndirib.

Toplantıda çıxış edənlərdən "Bakı"-"Baku" qəzetinin baş redaktoru Ağahüseyn Hüseynov, respublikanın əməkdar jurnalisti Etibar Babayev, veteran jurnalist Fazil Rəhmanzadə, "Bakı"-"Baku" qəzetinin baş redaktor müavini Ənvər Məşədiyev, poliqrafçı alim Şəddat Cəfərov, "Xalq qəzeti"nin əməkdaşı İlqar Həsənov, Bakı Multikulturalizm Mərkəzinin əməkdaşı, tanınmış jurnalist Araz Qurbanov, "Xalq qəzeti"nin baş redaktor müavini, MŞ-nin Ahıl Jurnalistlər Məclisinin rəhbəri Tahir Aydınoğlu, filalogiya üzrə fəlsəfə doktoru Şərəf Cəlilli, Bakı Slavyan Universitetinin jurnalistika fakültəsinin müəllimi Şəlalə Həsənova, AZTV-nin böyük redaktoru Aybəniz Məmmədəliyeva, "Yeni təfəkkür" qəzetinin baş redaktoru Şəmsiyyə Kərimova, tanınmış veteran jurnalistlər - Vaqif Musayev, əməkdar jurnalist Əntiqə Qonaqova, Rafiq Həsənov, Hacı Mehman Fərzullayev və başqaları Ş.Şahməmmədovla bağlı xatirələrini bölüşüblər. Onlar ustad jurnalisti peşəsinə sədaqət, prinsipiallıq simvolu kimi xarakterizə edən cəhətlərdən söz açaraq bildiriblər ki, belə bir şəxsiyyətin xatirəsinə ehtiram nümunəsi kimi ərsəyə gəlmiş "Şamil Şahməmmədov. Sərt, mərd, həmdərd" kitabında yer almış məqalələr ona vəfa borcu olmaqla yanaşı, həm də tariximizin mühüm mərhələsinin öyrənilməsi baxımından mühüm materiallardır.

Qeyd edək ki, bu il "Elm və təhsil" Nəşriyyatında çapdan çıxmış "Şamil Şahməmmədov. Sərt, mərd, həmdərd" kitabının tərtibçisi və ön söz müəllifi tanınmış jurnalist Züleyxa Nadir, redaktorları Züleyxan Nadir və Zemfira Məhərrəmlidir. Nəşrdə sənət dostları və həmkarlarının müxtəlif illərdə ustad qələm sahibi ilə bağlı yazıları, həmçinin onun həyat və fəaliyyətinin ayrı-ayrı dövrlərini əks etdirən fotolar yer alıb.

Onu da bildiririk ki, "Əməkdar mədəniyyət işçisi" fəxri adı, "Qızıl qələm" mükafatı laureatı, Azərbaycanın "Şöhrət" ordeni ilə təltif edilmiş ilk jurnalisti olan Şamil Şahməmmədov 1935-ci ildə Gəncədə anadan olmuş, 2021-ci ildə Bakıda vəfat etmişdir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması**



# "Gənc nəsil Azərbaycan dövlətinin yanındadır"

## Fərid Şahbazlı: "Yaxşı olar ki, regionlarda yaşayan gənclər də öz rayonlarında baş verən sosial-siyasi problemlərin işıqlandırılmasında, ictimai-mədəni həyatında aktiv rol alsınlar"

**Bu günümüzün əsas çağırışlarından biri də məhz gənclərin sosial və siyasi fəallığının artırılması, vətəndaşlıq təəssübkeşliyindən çıxış edərək dövlət maraqlarımızı yüksək səviyyədə qoruması, internetin imkanlarından bəhrələnərək Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına öz töhfələrini verməkdir.**

Prezident İlham Əliyev dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes strukturlarında gənclərin təmsil olunmasını qarşıya mühüm vəzifə kimi qoyub.

Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyət göstərir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Dövlətin gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin avanqard qüvvəsinə çevrilib. Sosial problemlərinin həlli, onların ictimai-siyasi fəallığının artırılması məsələləri dövlətin daim diqqət mərkəzindədir.

Qeyd edək ki, Azərbaycan gəncliyi öhdəsinə düşən vəzifələri həmişə layiqincə yerinə yetirib və ölkədə gedən proseslərin önündə olub. Gənc nəsil istər sovet dövründə, istərsə də müstəqillik illərində Azərbaycan Respublikasının ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edib. Minlərlə gənc beynəlxalq miqyaslı tədbirlərdə ölkəmizi uğurla təmsil edib, idmançılarımızın qələbələri sayəsində Azərbaycan bayrağı xarici dövlətlərdə yüksəlib. Gənclər mədəniyyətlərarası dialoqun aparılmasında, beynəlxalq əməkdaşlığın inkişafında fəal olublar. Bunun nəticəsində müxtəlif dövlətlərdə və beynəlxalq qurumlarda ölkəmiz daha yaxından tanınmış, onun tarixi, mədəniyyəti və bu günü haqqında geniş məlumatlar çatdırılıb. Xarici ölkələrdə təhsil alan azərbaycanlı gənclər və məzunlar, orada çalışan gənc mütəxəssislər Azərbaycan diasporunun formalaşmasında və lobbiçilik fəaliyyətində yaxından iştirak edirlər.

Ölkəmizdə çoxlu sayda fəal gənclər təşkilatı var ki, onların həyata keçirdiyi müəyyən layihələr də bu məqsədə xidmət edir. Bu layihələr vasitəsilə gənclər təşkilatları bütövlükdə vətəndaşların sosial fəallığının artırılmasına nail olurlar. Buna nümunə kimi pandemiya dövründə həyata keçirilən layihələri göstərə bilərik. Koronavirusdan qorunmaq, karantin qaydalarına əməl etmək, ahıl insanlara, aztəminatlı ailələrə dəstəklə bağlı atılan addımlar, gerçəkləşən layihələr sosial baxımdan vətəndaşların fəallığını artırıb. Bütövlükdə isə vətəndaşların sosial fəallığının artması cəmiyyətimizin inkişafına xidmət edir.

Vacib məqamlardan biri də gənclərin sosial fəallığının artırılması, eyni zamanda onların bu baxımdan aktivliyinə töhfə vermək̇dən ibarətdir. Bəs bu istiqamətdə mövcud vəziyyət necədir? Azərbaycan gəncliyi bu gün ölkədə baş verən sosial-siyasi problemlərin həllində nə dərəcədə fəaldır?

**"İslahatçı Gənclər" İctimai Birliyinin (İGİB) sədri Fərid Şahbazlının "Şərq"ə açıqlamasına görə, istənilən cəmiyyət üçün ən mühüm amil gənclərin sosial və siyasi fəallığının artırılmasıdır. Sosial və siyasi fəallığının artırılmasının digər mühüm əhəmiyyəti dövlətin milli təhlükəsizliyi və özünümüdafiəsi ilə bağlıdır.** Cəmiyyətdə insanların sosial və siyasi fəallığı yoxdursa, bu boşluğu zərərli və təhlükəli ünsürlər, radikal qruplar doldurur: "Azərbaycan gəncliyi ölkədəki sosial-siyasi problemlərin həllində müxtəlif formalarda iştirak edirlər. Azərbaycan gəncliyi hakimiyyətin müxtəlif qollarında təmsil olunur. Azərbaycanda milli-mənəvi dəyərlərə bağlı, eyni zamanda müasir dünyanın çağırışlarına cavab verəcək qədər intellektual və hazırlıqlı gənclər nəsli yetişir. Bu gün biz Azərbaycan gənclərinin uğurlu sədasını dünyanın nüfuzlu elm mərkəzlərindən, yəni olimpiadalarından, mədəniyyət, idman yarışlarından eşidirik. Azərbaycan gəncləri həm ölkəmizin ictimai-siyasi həyatında aktiv iştirak edir, həm də dünya miqyasında böyük uğurlar əldə edirlər. Gəncliyimiz tarixin bütün mərhələlərində Azərbaycan dövlətinin, dövlətçiliyinin yanında olub, ölkənin ictimai-siyasi həyatında aktiv iştirak edib. Müstəqilliyimizin əldə olunmasında, ölkənin inkişaf etməsində, müasir Azərbaycanın daha da güclənməsində gənclərimizin mühüm rolu var. Xüsusən də hakimiyyətin əsas qollarında məmur vəzifəsində çalışan gənclər mövcud siyasi-sosial problemlərin həllində yaxından iştirak edir, müxtəlif layihələrdə yer alır, həlledici təkliflərlə çıxış edirlər. Birləşdikləri vətəndaş cəmiyyətləri, gənclər təşkilatları vasitəsilə onların aktiv iştirakının şahidi oluruq. Amma bunlar yetərli deyil! Müəyyən çatışmazlıqlar da var. Yaxşı olar ki, regionlarda yaşayan gənclərin də öz rayonlarında baş verən sosial-siyasi problemlərin işıqlandırılmasında, ictimai-mədəni həyatında aktiv rol alsınlar".

Azərbaycan gəncliyinin qarşısında mühüm və böyük vəzifələr durduğunu vurğulayan F.Şahbazlı deyib ki, gənc nəsil ona bəslənən etimadı hər zaman doğruldacaq: "Gəncliyimizin inkişafına yönələn bu siyasət gənc nəslin inkişafına layiqincə şərait yaradır. Təcrübə göstərir ki, Azərbaycanın gənclər siyasəti dünya miqyasında böyük təqdirlə qarşılanır və öyrənilir. Ona göstərilən diqqəti yüksək qiymətləndirən Azərbaycan gəncliyi isə daim dövlətin yanındadır. Gənclər bundan sonra da öz əməlləri ilə onlara göstərilən etimadı doğruldacaqlar".

**Şəymən Bayramova**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Təhdidlərə son verilməlidir

## Tehranın yanlış addımları öz başında çatlayacaq



### Azər Həsrət: "İran və Rusiya layiq olduqları sərhədlər çərçivəsinə çəkilməlidir"

**İranın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvi İranın Xarici işlər naziri Hüseyn Əmirabdullahian ilə görüşüb. Səfir nazirə rəsmi Tehran və Bakı arasında ikitərəfli əlaqələrin inkişafı haqqında hesabat verib.**

Görüşdə Hüseyn Əmirabdullahian qonşu ölkələr, xüsusilə də müsəlman xalqlarla əlaqələrin əhəmiyyətinə işarə edərək, İranın Azərbaycanla bütün sahələrdə əlaqələri genişləndirmək əzmində olduğunu vurğulayıb. Ekspertlərin fikrincə, səfirin qəfil Tehrana çağırılması İsrail səfiri ilə yaranmış son qalmaqalla bağlıdır. İsrailin Azərbaycandakı səfirinin "Təbrizin sehrli nağılları"yla bağlı etdiyi paylaşıma İran səfiri qeyri-diplomatik tərzdə reaksiya vermişdi. Bu reaksiya əks-effekt yaradıb. İsrail səfirinin Təbrizlə bağlı paylaşımı trendə çevrilib. Dünyanın müxtəlif ölkələrində hətta tanınmış siyasilər, eks rəsmilər tərəfindən "Təbrizin sehrli nağılları" kitabının paylaşımları artıb. İranlı nazirin Azərbaycandakı səfirinə bu hadisə ilə bağlı konkret hansı təlimat verdiyi məlum deyil. Lakin Seyid Abbas Musəvinin qeyri-diplomatik reaksiyası olmasaydı, İsrail səfirinin paylaşımı böyük rezonans doğurmazdı. İran səfirinin sərt reaksiyası İsrail səfirinin işinə yaradı.

**Səfir qalmaqalı ilə bağlı fikirlərini "Şərq"lə paylaşan siyasi şərhçi Azər Həsrət bildirib ki, İran səfirinin ölkəsinə getməsi və XİN başçısına hesabat verməsi göstərir ki, Tehran hökuməti atdığı addımların yanlış olduğunu anlayır. Ekspertə görə, İran yaxşı dərk edir ki, yanlışlıqlar onun öz başında çatlayacaq:** "Ona görə də ortalığı yumşaltmağa cəhd göstərir. Səfirin nazirliyə hesabat verməsindən başqa, xüsusən, "qonşu müsəlman dövlətləri ilə münasibətlərin yaxşılaşdırılması" fikrinin səsləndirilməsi belə qənaətə gəlməyimizə səbəb olur. İsrail və İran səfirləri arasında sosial media üzərindən başlamış duelə gəlincə, burada səviyyə fərqi özünü çox ciddi şəkildə göstərdi. İsrail səfiri çox nəzakətli şəkildə, artıq ifadə işlətmədən, kimisə təhdid etmədən sadə paylaşım etdi. Bir növ İrandakı bəzi beyinlərə xitab etmək istədi ki, "özünüz şüşə evdə oturmusunuz, başqalarının evini daşlamayın". Amma İran səfirinin cavabı bir diplomata yaraşmayan ən aşağı səviyyəli təhdid idi. Faktiki olaraq o, İsrail səfirini ölümlə hədələdi. Səfir olan şəxs belə davrana bilərmi? Əslə yox. İranla İsrail arasındakı, daha doğrusu, iki səfir arasındakı fərq budur. İsrail ağılla hərəkət edir, İranın mollabaş fars rejimi isə "asaram, kəsərəm, öldürərəm" ritorikası ilə danışır. Belə şəraitdə Azərbaycan vətəndaşları İranı daim təhdid olaraq görəcək. Mən dövlətlərarası münasibətlərə qarışmaq istəmirəm. Siyasi şərhçi olaraq düşüncələrimi bəyan edirəm. İran bizim üçün təhdid olaraq qalmaqdadır və bu təhdidi yox etmək haqqında düşünməliyik. Necə ki, dünya İrandan qaynaqlanan təhdidin qarşısını almaq üçün tədbirlər görməyə çalışır, bizim də Güney Azərbaycandakı 40 milyon soydaşımız vaxtını boşa sərf etməməlidir".

**Analitik qeyd edib ki, İranla problemlərimiz birdəfəlik çözülməli, Azərbaycan bütövləşməlidir:** "Özünün intellektual imkanlarına görə, İranı idarə edənlərdən qatqat yüksəkdə duran 40 milyonluq Azərbaycan türkü molla rejiminin əsarətindən xilas olmalıdır. Təbriz qədim türk şəhəridir. Bunu heç kim inkar edə bilməz. İrandakı fars rejimi də, onlara həmfikir olan doğma qardaşları ermənilər də, Azərbaycanda onlara züy tutan bəzi ünsürlər də. Baş verən proseslər fonunda nəhayət ki, dünya düzəni dəyişməlidir. İran və Rusiya layiq olduqları sərhədlər çərçivəsinə çəkilməlidir. Əks halda bizim də, dünyanın da başı çox ağrıyacaq".

**İsmayıl Qocayev**



# Oxuduğunuz ixtisas ürəyinizcə deyilsə, dəyişə bilərsiniz

## Tələbələrin köçürülməsi prosesi operativ və şəffaf həyata keçirilir

**Dünəndən etibarən tələbələrin köçürülməsi prosesinə başlanılıb.**

**Təhsil Nazirliyindən verilən məlumata görə, tələbələrin ölkə daxili və xaricdə yerləşən ali təhsil müəssisələrindən köçürülməsi, yaxud bir ixtisasdan digərinə dəyişdirilməsi, eləcə də ölkəmizdə və xaricdə yerləşən orta ixtisas təhsili müəssisələri tələbələrinin köçürülməsi üzrə elektron sənəd qəbulu transfer.edu.az portalı vasitəsi ilə həyata keçirilir. Sənəd qəbulu iyulun 31-dək davam edəcək.**

Portala müraciət edən şəxslər köçürülmək istədiyi təhsil müəssisəsini və ya müəssisəsindən digərinə köçürülən, ixtisasını dəyişən və tələbələr sırasına bərpa olunan şəxslər (dövlət sifarişi əsasında təhsil alanların eyni ixtisas üzrə köçürülməsi istisna olmaqla) təhsillərini yalnız ödənişli əsaslarla davam etdirirlər.

Mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasının bütün ali təhsil ixtisası seçmək imkanına malikdir. Bunun üçün təhsilalanlar tələb olunan məlumatları elektron müraciətlərinə daxil etməklə, köçürülmə qaydalarına uyğun gəlib-gəlmədiyini müəyyən edə bilərlər.

**Tələbə köçürülməsinin elektron qaydada həyata keçirilməsini yüksək dəyərləndirən təhsil eksperti Kamran Əsədovun sözlərinə görə, bu sistem operativlik və şəffaflığa xidmət edir:** "Bilirsiniz ki, ali təhsil müəssisələrinin bakalavriat səviyyələrində təhsilalanların köçürülməsi Təhsil Nazirliyi tərəfindən elektron proqram təminatı tətbiq olunmaqla, mərkəzləşdirilmiş qaydada həyata keçirilir. Qaydalara əsasən, xarici ölkələrin akkreditə olunmayan təhsil müəssisələri tələbələrinin və digər ölkələrdə qiyabi təhsil alanların köçürülməsinə icazə verilmir. Bununla yanaşı, tələbənin təhsil aldığı ali təhsil müəssisəsinin dünyanın ən yaxşı ali təhsil müəssisələrinin reytinq siyahısında olması da nəzərə alınan göstəricilər sırasındadır. Bir ali təhsil müəssisələrində (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla) təhsil alan tələbələrə şamil edilir. Lakin tələbələrin köçürülməsi *(təhsil formasını və ixtisasını, təhsil aldığı məktəbi, şəhəri və ya ölkəni dəyişməsi)* yalnız əsaslandırılmış səbəblər olduqda həyata keçirilə bilər. Birinci və ikinci kursda köçürülməyə icazə verilir".

*Ekspertin sözlərinə görə, burada əsas tələb odur ki, Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən keçirilən qəbul imtahanlarında tələbənin topladığı bal qəbul olunduğu ildə köçürülmək istədiyi ali təhsil müəssisəsində müvafiq ixtisas üzrə minimal keçid balından az olmamalıdır:* "Həmçinin, tələbənin qəbul olunduğu və köçürülmək istədiyi ixtisaslar DİM tərəfindən müəyyən olunan eyni ixtisas qrupu daxilində olmalıdır. Yəni siz qəbul olduğunuz ildə yaxşı bal toplamısız, amma doğru ixtisas seçimi etməmisiniz, ya da oxuduğunuz ixtisas ürəyinizcə deyilsə, Təhsil Nazirliyi imkan verir ki, balınız uyğun gəlirsə, rahatlıqla, heç kimi görmədən, xərcə düşmədən köçürülmənizi edin. Ali təhsil müəssisələrinin bakalavriat səviyyələrində təhsilalanların köçürülməsi Təhsil Nazirliyi tərəfindən elektron proqram təminatı tətbiq olunmaqla, mərkəzləşdirilmiş qaydada həyata keçirilir. Tələbələrin eyni tədris müəssisəsi daxilində ixtisasını və ya təhsil formasını dəyişməsi, eləcə də bir tədris müəssisəsindən digərinə köçürülməsi və tələbələr sırasından xaric edilmiş şəxslərin tələbələr sırasına bərpası qış və yay tətilləri dövründə aparılır. Mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycanın bütün ali təhsil müəssisələrində təhsil alan tələbələrə şamil edilir. Bütün hallarda tələbələrin köçürülməsi yalnız əsaslandırılmış səbəblər olduqda həyata keçirilə bilər. Proses transfer.edu.az portalı vasitəsi tamamilə şəffaf şəkildə həyata keçirilir".

**Şəymən**

# Xaricə getmək bir nağıldır

## Jurnalistlər yay tətilini Vətəndə keçirəcəklər



**Artıq yay mövsümü olduğu üçün jurnalistlər məzuniyyət hüquqlarından istifadə edirlər. Məzuniyyət üçün bölgələri seçənlər də var, xarici ölkələrə üz tutmaq istəyənlər də. Maraqlıdır, həmkarlarımız yay tətilini harada və necə keçirməyi planlayırlar?**

"Şərq" bu suallara cavab tapmaq məqsədilə jurnalistlərə müraciət edib.

**Azərbaycan Jurnalistlər Birliyinin sədri, "Ayna-Zerkalo" qəzetlərinin baş redaktoru Elçin Şıxlı yay tətilini ölkə daxilində keçirəcəyini bildirib:** "Azərbaycanda xeyli maraqlı yerlər var. Çalışıram ölkədə olmadığım yerlərə gedim. Bundan əvvəl Xızıya və İsmayıllıya getmişdim, maraqlı yerlər var idi. Problem çıxmasa, bir neçə gündən sonra Göygöldə yaylaq festivalı keçiriləcək, orada iştirak etmək istəyirəm".

**Yazıçılar Birliyinin katibi, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid də məzuniyyətini Azərbaycanda keçirəcəyini deyib:** "İndiki vəziyyətdə xarici ölkələrə getmək çətin məsələdir. Yəqin, ölkə daxilində bir yer tapıb gedərik".

**"İdman Azərbaycan" kanalının müxbiri İbrahim Məmmədov bildirib ki, artıq 20 gündür məzuniyyətdədir:** "Məzuniyyətimi vətəndə keçirməyə üstünlük verdim. Önəmli olan sevdiklərim və ailəmin yanımda olmasıdır".

**Pirallahı rayonu tibb mərkəzinin mətbuat katibi Səkinə Rüstəmzadə də məzuniyyətini ölkə daxilində keçirəcəyini söyləyib:** "Məzuniyyətə avqust ayında çıxmağı planlamışam. Büdcəmlə əlaqədar yay tətilini Şamaxı rayonunda keçirmək istəyirəm".

**"Şərq" qəzetinin müxbiri İsmayıl Qocayev də məzuniyyəti vətəndə keçirəcəyini deyib:** "Yay tətilimi doğulub boya-başa çatdığım Ağdaş rayonunda keçirəcəm. Əlbəttə, mən də xarici ölkələrə getmək istəyərdim. Lakin maddi durumum buna imkan vermir".

**Nihat Müzəffər**

# TikTok-la bağlı ölkədə psixoloji terror yaşanır

"Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nə bu istiqamətdə əlində olan qanunvericilik bazasını işə salır, nə də mövcud təhlükələrlə bağlı hər hansı bir tədbir görür"

**TikTok platforması yarandığı ilk gündən insanlarda sanki məsxərə predmetinə çevrilib. Son zamanlar isə ondan yararlananların geniş vüsət alması, eyni zamanda istifadəçilər arasında yaranan gülünc mübahisələr, davalar, qeyri-etik paylaşımlar insanlarda TikTok işlətməklə bağlı tərəddüd yaradıb. Artıq adam "mən də həmin sosial şəbəkədən yararlanıram", deməyə utanır. Sırf biədəb videoları ilə baxış və izləyici sayını artırmaq istəyən şəxslərin sayəsində.**

Bu platformada hər tipdə, yaşda, psixologiyada, mədəniyyətdə insan tapmaq mümkündür. Belə demək mümkünsə, TikTok cəmiyyətdə bir növ daşıdıcı katalizator rolunu oynayır. Təbii ki, informasiya yükü olduğunu deyib, faydalananlar, əylənmək məqsədilə istifadə edənlər də mövcuddur. Belə olduğu halda ikitərəfli fikirlər, düşüncələr haqlı olaraq, bəzən insanları TikTokdan ağıllı istifadənin mümkünlüyü barədə düşündürür.

**İnternet-media eksperti Səbuhi Abbasov "Şərq"ə açıqlamasında bildirib ki, qanunvericilikdə Azərbaycanda internet media və informasiya təhlükəsizliyi ilə bağlı müəyyən müddəalar yer alıb:** "Təxminən son 2-3 il əvvəl Prezident İlham Əliyevin sərəncamı ilə bu qanunvericilikdə müəyyən dəyişikliklər oldu. Sadəcə, ölkədə bütövlükdə internet media və informasiya təhlükəsizliyi barədə qəbul olunan qərarların icra mexanizmində ciddi boşluqlar var. Ona görə də effektiv nəticə görmürük. İnternet istifadəçiləri, xüsusilə azyaşlıların mobil qurğulara əlçatanlığı, internetə çıxış imkanları, nəzarətsizliyin olması cəmiyyətdə müəyyən mental, mənəvi, psixoloji dəyərlərlə bağlı fişinqlərin qoyulmaması ilə əlaqədilir. Burada hər hansı məhdudiyyətdən söhbət getmir.




Məsələn, düşünürəm ki, TikTok qadağan edilməlidir. Amma bu, çıxış yoludurmu?! Xeyr. Çünki sözügedən platformanı qadağan etsək, yaxın 5 ildə ən azı ondan üstün funksiyaları olan bir neçə sosial tədbirlər meydana çıxacaq. Hər birini əngəlləmək problemin həlli metodu deyil. Dünyada baş verən innovasiyalarla ayaqlaşmaq lazımdır. Bütün innovativ yenilikləri təhlil edən Beyin Mərkəzi yaradılmalıdır. Bir neçə il əvvəl də bu təklifi irəli sürdüm. Adıçəkilən mərkəz dünyada baş verən yeniliklər, yeni texnologiyalar, sosial şəbəkələr, mobil tədbirləri çevik şəkildə analiz etməlidir. Həmçinin hökumət qarşısında müəyyən ideyalar irəli sürməlidir".

*Ekspert həmçinin əlavə edib ki, TikTokun ən təhlükəli tərəflərindən biri yeniyetmələrin oradan necə gəldi istifadə etməsidir:* "Yetkinlik yaşındakı insan özünün gənclik və ahıl yaşlarını təsəvvür etməyən çılğın bir yaş dövrü keçirir. 15 yaşında bir övladımızın etdiyi hərəkət bəlkə də 10 ildən sonra onun həyatını tamamilə məhv edəcək. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nə bu istiqamətdə əlində olan qanunvericilik bazasını işə salır, nə də mövcud təhlükələrlə bağlı hər hansı bir tədbir görür. Bu, çox ciddi bir siqnaldır. Ölkədə çox ciddi psixoloji terror yaşanır. Günahkar isə TikTok deyil. Sadəcə yaradılıb, işə salınan layihənin imkanlarından ölkələrin hansı formada istifadə edəcəyi artıq dövlətlərin öz üzərinə düşən məsuliyyətdir. Bütün tədbirləri, innovativ yenilikləri qadağan etməklə prosesdən çıxış yolu əldə etmirik. Nə qədər gec olsa da, innovativ yeniliklərin təhlil mərkəzi yaradılmalıdır. Eyni zamanda müəyyən inzibati cəza mexanizmləri tətbiq edilməlidir. DİN-in sosial şəbəkə istifadəçilərinə mütəmadi nəzarət etməsi də mümkün deyil. Ona görə də birmənalı cavabdeh qurum Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyidir".

**Sücayət Mehti**

## Gülben Ergen Bakıya gəlir




**27 iyul Mərdəkanda yerləşən Şazeli bahce restoranında məşhur türkiyəli ifaçı Gülben Ergen çıxış edəcək.**

Karyerasına model olaraq başlayan özünü həm də aktrisa kimi sınayan G.Ergen Şazeli bahçe səhnəsində möhtəşəm şou göstərəcək. Gecə səhərə kimi davam edəcək.

*Qeyd edək ki, yay boyu əyləncəli konsertlər təşkil edən Şazeli Bahçedə 27 iyulda Gülben Ergen, 29 iyulda Namiq Qaraçuxurlu, 3 avqustda Çengiz Kurtoğlu, 5 avqustda Röya, 17 avqustda isə İrem Derici qonaq olacaq.*

## "İlan" klipi ərsəyə gəldi

Damla 3 min manatından keçməli olub



**Müğənni Damlanın "İlan" klipində istifadə etdiyi kosmonavt geyiminin maddi dəyəri üzə çıxıb.**

Bu barədə olay-a sənətçinin prodüseri Şamil İbrahimov məlumat verib. O bildirib ki, ekran işində istifadə edilən kosmonavt forması üçün Damla 3 min manatından keçməli olub. Belə ki, geyimin bir saatlıq kirayə haqqı 1000 manata başa gəlib.

*Qeyd edək ki, Damlanın bir neçə gün əvvəl təqdim etdiyi "İlan" klipi müzakirələrə səbəb olub. Onun ekran işində rahibə obrazını canlandırması sosial şəbəkələrdə birmənalı qarşılanmayıb.*

## "Yalvarıram sizə"

Elnarə Xəlilova intihar edən Laçından yazdı



**Sosial şəbəkələrdə 17 yaşlı Laçının imtahanda yüksək bal toplamaması səbəbindən valideynlərinin təzyiqi ucbatından intihar etməsi ilə bağlı məlumat yayılıb.**

Onun intihar etməzdən öncə paylaşdığı deyilən status sosial mediada geniş müzakirələrə səbəb olub.

Hadisəyə münasibət bildirənlərdən biri də müğənni Elnarə Xəlilova olub. O, övladı ali məktəbə qəbul olmayan valideynlərə müraciət edib:

"Etməyin, eləməyin belə, əziz valideynlər. Övladınız ali məktəbə qəbul olmadı? Canınız sağ olsun. Verin peşə məktəbinə, dərziliyə, vizajistliyə, aşpazlığa. Bir məşğuliyyət tapın uşağınıza. Oğlunuzu da həmçinin: getsin ofisiant işləsin, maşın yusun, usta işləsin. Amma canına qoymayın qəsd etsin. Xahiş edirəm sizdən, yalvarıram sizə".

## Mütəxəssislərin düşüncəsi səhv imiş

Yağlı qidalardan imtina heç də ürək-damar sistemi xəstəliklərindən qorumur



**Uzun illər ərzində mütəxəssislər ürək xəstəliklərinin və piylənmənin əsas səbəbini yağlı qidalarda görürdü.**

Belə hesab olunurdu ki, yağlı qidalar orqanizmdə "pis" xolesterinin səviyyəsini artırır ki, bu xolesterin də damarlarda toplanaraq damarların daralmasına, daha kövrək və zəif olmasına, tez partlamasına səbəb olur. Bu isə ürək-damar sistemi xəstəliklərinin, insult və infarkt kimi ağır pozulmaların riskini artırır.

Bu səbəbdən mütəxəssislər insanlara qidalanmada yağların mümkün qədər məhdudlaşdırmağı tövsiyə edirdilər. Bu, illər ərzində davam etsə də heç bir müsbət nəticə verməyib. Əksinə, bu qidalanma prinsipi xüsusilə populyar olan ölkələrdə (xüsusilə ABŞ-da) ürək-damar sistemi xəstəliklərinin və bu xəstəliklərdən ölüm hallarının sayı daha da artıb.

Aparılan araşdırmalar nəticəsində alimlər belə qərara gəliblər ki, yağlı qidalardan imtina heç də ürək-damar sistemi xəstəliklərdən qorumur. Dünyada ürək-damar sistemi xəstəliklərinin artmasının əsas səbəbi yağlar deyil, şəkər və tütündür. "Komsomolskaya pravda" xəbər verir ki, Kaliforniya Universiteti alimi professor Henrix Şmidt sübut edib ki, məhz şəkərin çoxlu miqdarda qəbulu ciddi damar problemlərinə və nəticədə insulta səbəb olur. Orqanizmdə şəkər (fruktoza və ya qlükoza) molekulları zülallar və piylərlə birləşir ki, bunun nəticəsində "fruktozamin" maddəsi əmələ gəlir. Bu maddə hüceyrələrdə toplanaraq damar divarlarını zədələyir və həmçinin dərinin kollagen və elastan liflərinin dağılmasına səbəb olur. Nəticədə insanın damarları və dərisi qocalır, zəifləyir. Zəif damarlar daha tez partlayır ki, bu da insulta səbəb olur.

Digər araşdırmalar göstərib ki, şəkər həmçinin sümüklərin sağlamlığına mənfi təsir edir və immun sistemini zəiflədir.

Beləliklə, özünüzü ürək-damar sistemi xəstəliklərindən, piylənmədən və tez qocalmaqdan sığortalamaq istəyirsinizsə şəkərin qəbulunu məhdudlaşdırın. Alimlər gün ərzində 4-6 çay qaşığından artıq şəkəri qəbul etməyi tövsiyə etmir. Söhbət tək təmiz şəkərdən getmir. Şəkər bir çox hazır məhsulların, qazlı içkilərin və s. tərkibinə daxildir.

**Şəymən**

## ÜST-ün təklifi təpki ilə qarşılanır

Həkim-psixiatr Elvin Məmmədov: "Genetik araşdırmalarda üçüncü cinsin heç bir bioloji sübutu tapılmayıb"

**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) bu yaxınlarda bəyan etdi ki, cinsiyyət yalnız kişi və ya qadınlarla məhdudlaşmır. 2011-ci ildə nəşr edilmiş və bütün dünyada səhiyyə mütəxəssisləri tərəfindən istifadə edilən "Gender əsaslandırılması üzrə təlimat" yenilənəcək və yeni nəşrdə üçüncü cins təqdim ediləcək.**



ABŞ-ın keçmiş prezidenti Donald Tramp Floridada tələbə konfransında çıxışı zamanı deyib ki, yalnız iki cins var: kişilər və qadınlar.

ABŞ hakimiyyətinin gender siyasətini tənqid edən D.Tramp iddia edib ki, onlar solçu gender ideologiyasına və zəhərli kritik irq nəzəriyyəsinə inanırlar. Biz iki cinsə inanırıq: kişilər və qadınlar.

**Həkim-psixiatr Elvin Məmmədovun sözlərinə görə, bioloji cins anadangəlmədir, genetik ardıcıllıq olaraq iki cins var: kişilər və qadınlar. Genetik araşdırmalarda üçüncü cinsin heç bir bioloji sübutu tapılmayıb:** "Üçüncü cinsi kimi təqdim olunan transseksuallıq bir xəstəlikdir. Onlar istəsə müalicə edilə bilər. Onunla vidalaşmaq üçün sadəcə iradəli olmaq, psixiatrik müalicə kursu qəbul etmək vacibdir. Homoseksuallıqdan xilas olmaq, normal ənənəvi cinsə dönmək hər kəsin öz əlindədir. Bəzi hallarda insanın embrional dövrdə bioproseslərin pozulması, ya da xromosonm xəstəlikləri onun cins olaraq düzgün formalaşmamasına gətirib çıxarır.

Homoseksualizm və transseksualizmdə psixoloji cinsin pozulması gedir ki, bu da fiziki olaraq insanın qadın və ya kişi kimi görünməsinə baxmayaraq, psixoloji cins olaraq özünü yad hiss edir, öz anatomik cinsinə yad baxır və özünün o cinsdən olmasına inanmır".

*Psixiatrın sözlərinə görə, transeksuallıq şəxsiyyətin psixi deformasiyasıdır. Əsrimizin əvvəlində Ziqmund Freyd bu tip pozulmaların kökünün 2 yaşında və ya daha uşaq yaşlarında qoyulduğunu irəli sürüb:* "18 yaşına qədər şəxsiyyət və yetkinlik qavrayışı inkişaf etməkdə davam edir və 18 yaşa qədər valideynlər təbii qəyyumluqlarına görə övladları haqqında qərar vermək səlahiyyətinə malikdirlər. Bu, 18 yaşdan yuxarı olanlar üçün həyat fəlsəfəsi kimi azadlıq sahəsidir. Üçüncü seksuallıq olaraq təyin olunan homoseksuallıq həm də sırf cinsi oriyentasiya və sosial seçimdir, mədənidir. Cəmiyyətin, mədəniyyətlərin və inanc sistemlərinin də bunu rədd etmək hüququ var. Mütəxəssislərin fikrincə, homoseksuallıq, pedofiliya kimi anormal insan davranışları bu gün ona görə rəsmi səviyyələrdə qəbul olunur və həyat tərzinə çevrilir ki, kimlərsə ondan siyasi alət kimi istifadə edir. Hər nə qədər ÜST bu şəxsləri 3-cü cins kimi təqdim etməyə çalışsa da bu cür hallar bir çox cəmiyyətlərdə qəbul edilmir. Düşünürəm ki, yaxın gələcəkdə də bununla bağlı insanlar tərəfindən təpki olacaq".

**Şəymən Bayramova**

### Elan

İbrahimov Ayxan Rəşadət oğluna məxsus №0058193 saylı hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Daxili Qoşunların əməkdaşı Əliyev Elgün Nəsrullah oğluna verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

1 saylı Bakı tibb məktəbi tərəfindən Əliyeva Gülazər Həsənağa qızına verilmiş diplom itdiyi üçün etibarsız sayılır.

Babaşova Göhvər Orucəli qızına məxsus Abşeron rayonu, Xırdalan şəhəri, Jasmin park yaşayış kompleksi, bina 4, mənzil 16-ya verilmiş evin müqaviləsi itdiyi üçün etibarsız sayılır.

# Bakcell Azərbaycanın ən sürətli mobil şəbəkəsidir

**Bakcell növbəti dəfə Azərbaycanın "Ən sürətli mobil şəbəkəsi"* kimi tanınıb. Bu mükafat mobil və genişzolaqlı şəbəkələrin intellektual təhlili, mobil tətbiqetmələrin və texnologiyaların sınaqdan keçirilməsi üzrə dünya lideri olan Ookla® şirkətinin müstəqil təhlili nəticəsində verilib.**




Mükafat dövründə Ookla® Azərbaycanda ən sürətli mobil şəbəkəni müəyyən etmək üçün 2022-ci ilin I və II rübüərzində ölkənin mobil rabitə istifaçiləri tərəfindən Speedtest® iOS və Android mobil tətbiqetmələri vasitəsilə keçirilmiş 71 mindən çox testi müqayisə edib. Nəticədə"Bakcell"in mobil şəbəkəsi bu ilin I və II rübüzrə ən yüksək yükləmə (download) və ötürmə (upload) sürəti nümayiş etdirib.

"Ookla tərəfindən təqdim edilən "Speedtestmükafatı" müstəsna internet sürəti və əhatə dairəsini təmin edən seçilmiş şəbəkə operatorları üçün nəzərdə tutulub. "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" mükafatını Bakcell şirkətinə böyük məmnuniyyətlə təqdim edirik. Bu mükafat şirkətin 2022-ci ilin I və II rübləri ərzində göstərdiyi misilsiz nəticələrin təsdiqidir. Nəticələr abunəçilər tərəfindən "Speedtest" proqramı vasitəsilə edilən sınaqların ətraflı təhlili vasitəsilə əldə olunub", deyə Ookla şirkətinin baş icraçı direktoru Doug Suttles bildirib.

Qeyd edək ki, Ookla şirkəti 2018, 2019-cu və 2021-ci ildə Bakcell şəbəkəsini Azərbaycanın "Ən sürətli mobil şəbəkəsi"adlandırıb.

Bakcell Azərbaycanda eSIM və VoLTE texnologiyalarını tətbiq edən ilk mobil operatordur.

"Ookla"nın 2022-ci ilin 1-ci və 2-ci rübləri üzrə Speedtest Intelligence® məlumatlarının təhlilinə əsasən. Ookla ticarət nişanları lisenziya və müvafiq icazə əsasında istifadə olunur.

**Ookla haqqında:**

Ookla® mobil və genişzolaqlı şəbəkələrin intellektual təhlili, mobil tətbiqetmələrin və texnologiyaların sınaqdan keçirilməsi üzrə dünya lideridir. "Ookla"nın aparıcı şəbəkə sınaqları platforması olan Speedtest® proqramı hər gün bütün dünyanın şəbəkələrin fəaliyyəti və keyfiyyətinə dair milyonlarla ölçmələrin nəticələrini emal edir.

**Bakcell haqqında:**

Azərbaycanın İlk Mobil Operatoru Bakcell şirkəti müasir mobil telekommunikasiya xidmətləri istifadəçilərinə geniş çeşiddə məhsullar təklif edir. Bu gün Bakcell şəbəkəsi 9 minə yaxın baza stansiya sayəsində Azərbaycan əhalisinin 99.9%-ni, ölkə ərazisinin isə 92.6%-ni əhatə edir.

Bakcell və onun məhsul və xidmətləri haqqında ətraflı məlumat əldə etmək üçün, xahiş edirik, www.bakcell.com internet səhifəsinə daxil olun və ya 555-ə zəng edin. Press-relizlərlə tanış olmaq üçün www.bakcell.com/az/news səhifəsinə daxil olun.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2020



## Mütəxəssislərin düşüncəsi səhv imiş

Yağlı qidalardan imtina heç də ürək-damar sistemi xəstəliklərindən qorumur

**Uzun illər ərzində mütəxəssislər ürək xəstəliklərinin və piylənmənin əsas səbəbini yağlı qidalarda görürdü.**

Belə hesab olunurdu ki, yağlı qidalar orqanizmdə "pis" xolesterinin səviyyəsini artırır ki, bu xolesterin də damarlarda toplanaraq damarların daralmasına, daha kövrək və zəif olmasına, tez partlamasına səbəb olur. Bu isə ürək-damar sistemi xəstəliklərinin, insult və infarkt kimi ağır pozulmaların riskini artırır.

Bu səbəbdən mütəxəssislər insanlara qidalanmada yağları mümkün qədər məhdudlaşdırmağı tövsiyə edirdilər. Bu, illər ərzində davam etsə də heç bir müsbət nəticə verməyib. Əksinə, bu qidalanma prinsipi xüsusilə populyar olan ölkələrdə (xüsusilə ABŞ-da) ürək-damar sistemi xəstəliklərinin və bu xəstəliklərdən ölüm hallarının sayı daha da artıb.

(davamı səh.7)

**Şəymən**

## Qanuna dəyişiklik olacaq

Ad günü olan vətəndaş həmin gün işləməyəcək



**Rusiyanın Dövlət Duması qanuna dəyişiklik etməyə hazırlaşır.**

Bakupost.az xəbər verir ki, deputat Oleq Matveyçev vətəndaşların ad günündə işə gəlməmək hüququnun verilməsi təklifini irəli sürüb.

O, Əmək nazirliyinə də müraciət ünvanlayıb.

Əmək məcəlləsində bu məsələ nəzərdən keçirilib. Doğum günü olan şəxs həmin gün ya qısaldılmış saat çalışmalıdır, ya da ümumiyyətlə istirahət verilməlidir.

Deputatlar bunu onunla əsaslandırıb ki, ad günü ənənəvi olaraq ailə məclisi ilə qeyd edilir və bu özəl günü keçirmək üçün vətəndaşın vaxtı olmur.

Qanuna belə dəyişiklik şirkət və idarələrin iş keyfiyyətini aşağı salmayacaq.

Rəhbərlik öncədən biləcək ki, hansı gün hansı əməkdaşı ad gününə görə işləməyəcək.

Bundan öncə Dövlət dumasında məmur və deputatlar üçün istirahət və tətil günlərinin minimum həddə qədər azaldılması təklif edilmişdi.





# Dünyada bütün insanlar körpələrlə eyni dildə danışır

## Alimlər araşdırdı, maraqlı nəticə ortaya çıxdı

**ABŞ-ın nüfuzlu Harvard Universitetinin araşdırması nəticəsində məlum olub ki, dünyanın müxtəlif yerlərində insanların körpələrlə ünsiyyət tərzi demək olar ki, eynidir.**

Körpə ilə danışarkən səsiniz incəlir və qəribə səslər çıxarırsınız, bilin ki, tək deyilsiniz. Harvard Universitetində aparılan bir araşdırma, dünyada insanların əksəriyyətinin körpələrlə eyni şəkildə ünsiyyət qurduğunu ortaya qoyub.

"Music Lab" adlı şirkət 6 fərqli qitədəki insanların körpələrlə danışarkən oxşar üsullardan istifadə etdiyini müəyyən edib. "Nature Human Behavior" jurnalı bu təsbitlər nəticəsində nitq və mahnı törəmələrinin körpənin inkişafında və ailə-uşaq bağlarında xüsusi funksiyaya malik olduğunu vurğulayıb.

3 il davam edən araşdırmada fərqli mədəniyyətə və həyat tərzinə malik 410 cütlüyün körpələri ilə söhbətləri qeydə alınıb. 21 ölkədən 1615 qeyd və məlumat toplanıb. San-Dieqodan Şərqi Afrikaya qədər bir çox fərqli ölkədə böyüklərin körpələrlə danışıq tərzi araşdırılıb. Tədqiqatçıların 70 faizinin danışıq dilini bilməməsinə baxmayaraq, onlar sözlərin körpələr üçün nəzərdə tutulduğunu ayırd edə biliblər.

Tədqiqatçıların kəşfi göstərib ki, bütün dünyada insanlar körpələrlə danışarkən "incə, mülayim " səsdən istifadə edirlər.

Digər tapıntılar təzadlı sait səslərin və musiqi ritminin qabarıq olduğunu göstərib. Tədqiqatçılar böyüklərin oxumasını tədqiq edərkən, temp və səs tonunda ardıcıl dəyişiklikləri müşahidə ediblər.

Alimlər deyirlər ki, mədəniyyət və həyat tərzi fərqli olsa da, bütün insanlar körpələri ilə eyni şəkildə danışır. Bəziləri buna "ana dili" deyirlər.

Alimlər müxtəlif cəmiyyətlərdəki laylaların da oxşarlıqlarına diqqət çəkirlər.

Tədqiqatçılar emosiyaların və hisslərin səs tonu ilə körpələrə ötürülə biləcəyini vurğulayırlar. Qeyd edək ki, körpə və uşaqların inkişafında valideynlər arasında ünsiyyətin əhəmiyyəti çoxdan məlumdur.

**Turan**





## Məhəmməd Əlinin çempion kəməri hərracda 6,18 milyon dollara satılıb



**Amerikalı biznesmen, Milli Futbol Liqasının (NFL) "İndianapolis Kolts" komandasının sahibi Cim İrsey əfsanəvi boksçu Məhəmməd Əlinin çempion kəmərini hərracda 6,18 milyon dollara alıb.**

Azərtac France-Presse agentliyinə istinadla xəbər verir ki, Məhəmməd Əli həmin kəməri 1974-cü ildə amerikalı Corc Formanla döyüşün səkkizinci raundunda nokautla qalib gələrək qazanmışdı. Bu, İrseyin hərraclarda ilk qiymətli alış-verişi deyil. Biznesmen Elvis Presliyə və Con Lennona məxsus bir neçə gitaraya da sahibdir. Məhəmməd Əli (əvvəlki adı Kassius Kley) 1942-ci ildə anadan olub, 1964-cü ildə İslamı qəbul edib. O, 1960-cı ildə yarımağır çəkidə olimpiya çempionu, ağır çəkidə mütləq dünya çempionu (1964-1966, 1974-1978) titullarını qazanıb. Keçirdiyi 61 döyüşün 56-da (37-si nokautla) qələbə qazanan Məhəmməd Əli 2016-cı ildə vəfat edib.

## Dostluğa son qoyuldu

"Google"un yaradıcısının xanımı İlonla ona xəyanət etdi



**"SpaceX" və "Tesla" şirkətlərinin qurucusu İlon Mask yenidən eşq həyatı ilə gündəmə gəlib.**

"Wall Street" jurnalı iddia edib ki, İlon "Google" kompaniyasının həmtəsisçisi, milyarder Sergey Brin ikinci həyat yoldaşı Nikol Şanaxanla münasibət yaşadığı iddia edib. Bildirilib ki, məhz bu səbəbdən cütlük boşanmaq qərarı alıb. Nəşrin məlumatına görə, İlon və Nikol ötən ilin dekabrında tanış olublar. Bu münasibət Sergeyin evliliyi ilə yanaşı İlonla aralarındakı dostluğa da ciddi zərbə vurub.

İlon jurnalın iddialarına hələlik münasibət bildirməyib.

*Qeyd edək ki, İlon dünyanın zənginləri siyahısında 253,4 milyard dollarla birinci, Sergeyin isə 89,9 milyard dollarla 10-cu yerdədir.*



# Meymunlar şəhərdə 42 nəfəri yaralayıb

## Əhaliyə risklərə qarşı diqqətli olmaq üçün vərəqələr paylanır

**Yaponiyanın Yamaquçi əyalətinin sakinləri son həftələr tez-tez vəhşi meymunların hücumuna məruz qalır. Səlahiyyətlilər açıqlamalarında ötən həftə sonu 8 nəfərin heyvanların hücuma məruz qaldığını, iyulun əvvəlindən isə meymun hücumlarından 42 nəferin yaralandığını bildirib.**



Yamaquçi administrasiyasından verilən məlumata görə, bazar günü səhər saatlarında bir mənzilin pəncərəsini sındıran meymun mənzildə yaşayan 2 qadını ayağından dişləyib.

Sonrakı saatlarda eyni ərazidə yerləşən yaşayış binasının dördüncü mərtəbəsinə girərək başqa bir qadını əlindən yaralayıb. Ərazidə gəzən başqa bir qadının da eyni vaxtda meymunun hücumuna məruz qaldığı bildirilir. Bölgədə yaşayan 2 fərqli qadın və 2 kişini də meymunların dişlədiyi açıqlanıb.

Yaponiya Kənd Təsərrüfatı Departamentinin rəsmisi "Bütün Yamaquçi şəhəri dağlarla əhatə olunub və meymunları burada görmək qeyri-adi hal deyil, lakin qısa müddətdə insanlara bu qədər çox hücum nadir hadisədir" deyə bildirib.

Hücumlardan dərhal sonra səlahiyyətlilər sakinləri ayıq olmağa çağırıb və meymunları şəhərin mərkəzində tutmaq üçün hərəkətə keçib.

Yaponiyanın Yamaquçi əyalətində meymun hücumları bu ayın əvvəlində ictimaiyyətə açıqlanıb və bir çox sakin, o cümlədən körpə və uşaqlar vəhşi meymunlar tərəfindən yaralanıb.

Camaatı pəncərələrini açıq qoymamağa çağıran yerli hakimiyyət əraziyə profilaktik tələlərin qoyulduğunu açıqlayıb. Bundan əlavə, ictimaiyyətə meymun hücumu riskinə diqqət çəkən vərəqələrin paylandığı bildirilib.

**Turan**

## Daha bir yenilik

WhatsApp-da silinən mesajlar bir-bir ortaya çıxacaq




**Dünyanın ən məşhur mesajlaşma proqramlarından biri olan "WhatsApp" xidmətlərini yeniləməkdə davam edir.**

Sfera.az xəbər verir ki, bu yaxınlarda məlum olub ki, platforma "mesajın redaktəsi" funksiyası üzərində işləyir.

Mesajlaşma proqramında hər kəsin bildiyi kimi mesajları silmək imkanı var. Bu funksiya "Hər kəs üçün Sil" və ya "Mənim üçün Sil" seçimləri ilə mesajları müəyyən müddət ərzində silməyə imkan verir.

"WebTekno"da verilən xəbərə görə, ortaya çıxan yeni funksiya ilə siz dostlarınıza sildikləri mesajları geri götürmələrini deyə biləcəksiniz.

"WABetaInfo"nun məlumatına görə isə "WhatsApp" əməliyyatı geri qaytarmağa imkan verən düymə üzərində işləyir. Bu xidmətin çox faydalı ola biləcəyini söyləmək mümkündür.

Məsələn, bir mesajı səhvən silsəniz, bu düymə sayəsində mesajı geri ala biləcəksiniz.

Sözügedən funksiyanın tətbiqdə necə görünəcəyi və istifadə olunacağı ilə bağlı məlumatlar açıqlanıb. Mesajlar silindikdən sonra ekranın aşağı hissəsində 'Mesaj Silindi' sözləri ilə bildiriş görünəcək.

Bu bildirişdə siz əməliyyatı geri qaytarmağa imkan verən 'Geri Al' düyməsini görə biləcəksiniz. Demək olar ki, bu, Gmail-dəki geri qaytarma funksiyasına bənzəyir.

Bu funksiyadan həm qrup mesajlarında, həm də fərdi mesajlarda istifadə etmək mümkündür. Geri qaytar düyməsinin "Hər kəs üçün sil" funksiyası ilə silinmiş mesajlarda işləyəcəyi məlum deyil. Ekran görüntüsündə yeni funksiyanın silinmiş mesajda "Məndən sil" ilə birlikdə istifadə ediləcəyi bildirilir.

## Hazalın ikinci övladı olacaq



**Türkiyəli aktrisa Hazal Kaya ilə həyat yoldaşı aktyor Ali Atayın ikinci övladı olacaq.**

Türk mediası xəbər verir ki, Hazal hazırda üç aylıq hamilədir.

*Qeyd edək ki, ikilinin Fikret adlı bir oğlu var.*